

## Sergey Markedonov: “Ermənilər münaqişədən yorulub, yeni müharibə istəmirlər”

15



2

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib.


# Səs

№ 204 (6404) 6 noyabr 2021-ci il. Qiymətı 40 qəpik


# “Qlobal Bakı Forumu mühüm məsələləri müzakirə etmək baxımından çox vacib beynəlxalq tədbirdir”

# 8 Noyabr - Böyük Zəfər salnaməmiz



3

*Azərbaycan möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər gününün birinci ildönümünü qeyd edir. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan xalqı tarixi qələbə qazanaraq, 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il 8 noyabr tarixinin Azərbaycanda "Zəfər Günü" kimi qeyd edilməsi qərara alındı. Xalqımız 44 gün ərizində qələbələr qazanaraq Zəfərə doğru addımladı və tarixi qələbəni əbədiləşdirdi. Müzəffər Azərbaycan ordusunun və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə silinməz bir gün yazdı.*

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilmiş “Qarabağnamə” əsərinin təqdimat mərasimi keçirilib



5



## “Azərbaycan qonşu Ermənistanla sülh qurmaq istəyir, buna hazırdır”

4

## Baş ağrısı ilə yüksək təzyiqin əlaqəsi varmı?



*Adətən baş ağrısı xüsusilə yaşlı insanlarda ilk növbədə yüksək təzyiqlə əlaqələndirilir. Bu səbəbdən baş ağrısı zamanı biz ilk növbədə təzyiqimizi ölçürük.*

16

## MEDİA hərbi jurnalistlərlə görüş keçirib

7



Dünən Medianın İnkişafı Agentliyinin mərkəzi ofisində Şanlı zəfərin ildönümü münasibəti ilə Vətən müharibəsində iştirak etmiş hərbi jurnalistlərlə görüş keçirilib.

## Azərbaycanda əmək pensiyalarının orta aylıq məbləği artırılır



*Azərbaycanda 2022-ci ilin sonunda əmək pensiyalarının orta aylıq məbləğinin 343,17 manat təşkil edəcəyi proqnozlaşdırılır. SİA-nın məlumatına görə, bununla bağlı məsələ "2022-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.*

11

## 6 noyabr - Azərbaycan radiosunun yaranma günüdür

*1926-cı ilin 6 noyabr tarixində Azərbaycan radiosunun yaradılması ölkənin ictimai-mədəni həyatında əhəmiyyətli hadisəyə çevrildi. Bu yenilik minlərlə dinləyiciyə xoş ovqat bəxş etdi. Hər kəsin evinə yeni bir ab-hava daxil oldu.*



9

## Deputat Nəsrinin serialını şikayət etdi

*Uzun müddətdir maraqla gözlənilən və noyabrın 1-dən ekrana gələn "Üç kuruş" serialı sosial şəbəkələrdə müzakirə doğurub.*



16



## “Üçtərəfli görüşdə Zəngəzur dəhlizinin açılması gündəmdə olacaq”

10

“Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının görüşündə 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixində imzalanmış...




## Azərbaycan futbolunda yeni tarix: "Qarabağ" pley-offda!

16

*Futbol üzrə UEFA Konfrans Liqasının qrup mərhələsində 4-cü turun oyunları keçirilib. Belə ki, turnirdəki təmsilçimiz...*

# “Qlobal Bakı Forumu mühüm məsələləri müzakirə etmək baxımından çox vacib beynəlxalq tədbirdir”

## *Prezident İlham Əliyev Türkiyənin sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə ”COVID-19-dan sonrakı dünya” adı altında VIII Qlobal Bakı Forumunun mühüm məsələləri müzakirə etmək baxımından çox vacib beynəlxalq tədbir olduğu bildirildi, bu Forumun yüksək səviyyədə təşkil olunduğu vurğulandı.

Qeyd edildi ki, pandemiyaya baxmayaraq, Forumda çox sayda nüfuzlu qonağın iştirak etməsi bu tədbirə və Azərbaycana olan marağı göstərir. Forumun beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik bildirildi.

# “Bu Qələbədən yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası şərəf hissi duyur”

## *Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibini qəbul edib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qarşıdakı Zirvə görüşünə toxunularaq bu tədbirin üzv ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyi bildirildi və 2019-cu ildə Azərbaycanın sədrliyi ilə bu Zirvə görüşünün yüksək səviyyədə təşkil olunduğu vurğulandı.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev, ilk növbədə, dövlətimizin başçısını Zəfər Günü münasibətilə təbrik etdi, bu Qələbədən yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının şərəf hissi duyduğunu vurğuladı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Vətən müharibəsi zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və şəxsən Baş katib Bağdad Amreyevin Azərbaycanın haqq işinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

# “Azərbaycanla-ABŞ arasında uzun və uğurlu tərəfdaşlıq münasibətləri yaranıb”

## *Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin müavinini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla-ABŞ arasında diplomatik əlaqələrin qurulmasının gələn il 30 illiyinin qeyd ediləcəyi, ölkələrimiz arasında uzun və uğurlu tərəfdaşlıq münasibətlərinin olduğu bildirildi, enerji sahəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi, Birləşmiş Ştatların Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlı olduğu vurğulandı.

Söhbət zamanı regional inkişaf və əməkdaşlıq üçün yeni imkanların olduğu qeyd edildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***Azərbaycan möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər gününün birinci ildönümünü qeyd edir. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan xalqı tarixi qələbə qazanaraq, 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il 8 noyabr tarixinin Azərbaycanda "Zəfər Günü" kimi qeyd edilməsi qərara alındı. Xalqımız 44 gün ərizində qələbələr qazanaraq Zəfərə doğru addımladı və tarixi qələbəni əbədiləşdirdi. Müzəffər Azərbaycan ordusunun və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə silinməz bir gün yazdı.***



# 8 Noyabr - Böyük Zəfər salnaməmiz

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti Azərbaycan tarixində yeni gün oldu. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müraciət xalqın tarixinə həkk olundu. Bu Qələbəni, Zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, rəşadətli əsgər və zabitlərimiz oldu. Bildiyimiz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi ATƏT çərçivəsində başlamışdır. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atdı. Bu münaqişənin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirildi. İllərlə davam edən danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. "Biz bu qələbəni həm peşəkarlığı, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı", - deyə Azərbaycan Prezidenti bildirib.

Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı.

## "ƏZİZ ŞUŞA, SƏN AZADSAN!"

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəklikləri işğaldan azad etdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi və Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Ötən il noyabrın 8-də Şəhidlər xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan edərək: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deməsi hər bir azərbaycanlının qəlbində böyük bir sevinc yaşatdı. Əvəzsiz və əbədi sevinc hissini. "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir", - deyə Prezident bildirib. Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Dövlət başçısı tərəfindən Şuşa sevincini yaşadıqdan sonra sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçən Azərbaycan ordusu qalib oldu. Artıq Azərbaycanın işğalda olan torpaqları azaddır və Qarabağ Azərbaycandır!!!



## *Prezident İlham Əliyev: "Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir"*

## "BİZ QAN TÖKƏRƏK, CƏSARƏT GÖSTƏRƏRƏK, DÜŞMƏNİ QOVARAQ YENİ REALLIQ YARATMIŞIQ"

Bu gün xalqımızın, milyonlarla insanın qürur hissi ilə ziyarət etdiyi məkanlar sırasında Hərbi Qənimətlər Parkı da var. Yaşından asılı olmayaraq, hər kəs 44 günlük Vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisi olan Hərbi Qənimətlər Parkını ziyarət edərək Azərbaycan ordusunun qalibiyyətini bir daha görmüş olurlar. "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Hərbi Qənimətlər Parkının açılışı Vətən müharibəsində parlaq qələbəmizin bir rəmzidir. Bu gün paytaxtımızda yerləşən Hərbi Qənimətlər Parkına səyahət edən hər bir kəs, istər azərbaycanlı olsun, istərsə də qeyri-xalqın nümayəndəsi, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahları, ağır texnikaları, raket komplekslərini, hərbi nəqliyyat və digər sursatlar görür və ermənilərin məğlub xalq olduqlarının bir daha şahidinə çevrilirlər. Bildiyimiz kimi, ötən ilin dekabrın 10-da keçirilən Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilmişdi. Burada Şuşaya atılmış "İskəndər M" raketinin qalıqları da var. Azərbaycan Prezidenti Cənab İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışında çıxışı zamanı "Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular, deyə bildirmişdir.

Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Beləliklə, Hərbi Qənimətlər Parkı Azərbaycan Ordusunun döyüş əzminin, qəhrəmanlığının təcəssümüdür. Burada nümayiş etdirilən bütün qənimətlər göstərir ki, Qəhrəman Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Müzəffər Ali Baş Komandanın dediyi kimi, "Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır. Bəli, başqa yolları, çarələri yoxdur. Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər".

## ZƏFƏR PARADI AZƏRBAYCANIN HƏRBİ GÜCÜNÜ VƏ TARİXİ QƏLƏBƏMİZİ BÜTÜN DÜNYAYA NÜMAYİŞ ETDİRDİ

Xalq öz tarixi ilə tanınır, öz tarixi ilə böyüklüyünü təqdim edir. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, Zəfər tariximizi yazdı. Bu gün xalqımız qürurla bu günü qeyd edir. Təbii ki, bu uğurlu yolda neçə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında 27 Sentyabr Anım Günü təsis edilib. Bu Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın bir əlamətidir.

Dekabrın 10-da keçirilən möhtəşəm Zəfər paradı Azərbaycanın hərbi gücünü və tarixi Qələbəmizi bütün dünyaya bir daha nümayiş etdirdi. Zəfər paradı müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 gün davam edən "Dəmir yumruq" hərbi əməliyyatında qazandığı tarixi Qələbənin təcəssümü oldu.

Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Cənab Prezidentin bildirdiyi kimi, "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur". 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan dəyib. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılıb. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edəcək, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşacaqdır. Artıq buna başlanılıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlar abadlaşdırılır. Bu məkanların infrastrukturu yenidən qurulur, müasirləşir, yeni yollar çəkilir.

44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək tariximizə qələbə yazdı. Tarixi ədalət bərpa olundu və bu gün Azərbaycan torpaqlarında üç rəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. 30 ilin əziyyəti, həsrəti, əzabları xalqımızı sındırmadı və xalqımız irəliyə doğru baxdı. Xalq-iqtidar birliyi gücləndi, Ordumuz gücləndi. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğala son qoyuldu. Bu gün xalqımız böyük qələbə əzmi ilə möhtəşəm bir günü - 8 Noyabr Zəfər Gününü qeyd edir. Zəfər Gününüz mübarək!!!

***Nəzakət ƏLƏDDİNQIZI***




# “Azərbaycan qonşu Ermənistanla sülh qurmaq istəyir, buna hazırdır”

## *Hikmət Hacıyev: "O şərtlə ki, hər iki ölkə bir-birinin suverenliyini, ərazi bütövlüyünü tanısın"*






***Noyabrın 5-də ADA Universitetində "44 günlük Zəfər Yolu" mövzusunda konfrans-sərgi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən rektor Hafiz Paşayev ADA Universitetinin Qarabağ mövzusunda çoxsaylı tədbirlər keçirdiyini deyib. Bildirib ki, bu konfrans tamamilə başqa mahiyyət kəsb edir. Biz bu gün xalqımızı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzu, özümüzü Qələbə münasibətilə təbrik edə bilirik.***



”Mən ABŞ-da səfir olduğum illərdə fəaliyyətimi ABŞ Konqresinin 907 saylı düzəlişinin aradan qaldırılması istiqamətində səylərə həsr etmişəm. Çünki işğala məruz qaldığımız halda sanksiya ilə üzləşmişdik. Axı torpaqları işğal altında olan, əhalisi yerindən, yurdundan didərgin salınan mənim millətim idi, haqsız günahlandırılan üzərinə sanksiyalar qoyulan, hər cür yardımdan məhrum olunan da mənim xalqım idi. Niyə? Nəyə görə? Bu suallara təxminən 30 ildən sonra 44 günlük müharibədə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı cavab verdi”, - deyə rektor diqqətə çatdırıb.

Bir il bundan əvvəl başlayan müharibənin çox şərəfli bir Qələbə ilə yekunlaşdığını vurğulayan Hafiz Paşayeva deyib: ”Zəfərin bizə verdiyi imkanlardan istifadə etməliyik. Biz görürük ki, Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan proqram üzrə işlər necə məharətlə, sürətə gedir. Qələbə, əlbəttə, ilkin addımdır, ondan sonra biz gərək o həyatı bərpa edək, sülh üzərində çalışaq. Biz Azərbaycan xalqı kimi, xüsusilə gənclər bu Qələbəyə, şərəfli Zəfərimizə layiq olmalıyıq, onu möhkəmləndirməliyik. Çalışmalıyıq ki, o ağrılı tarix bir daha təkrarlanmasın”.

Xarici işlər naziri Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan Ordusu Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi ədaləti bərpa edərək 30 illik işğala son qoydu. Dörd il müddətində işğal edilən torpaqlarımızı 44 günlük müharibə ilə azad etdik. Azərbaycan Ordusu böyük qəhrəmanlıq, şücaət göstərərək tariximizin ən şanlı səhifəsini yazdı.

Ölkəmizin müstəqilliyinin ilk illərində üzləşdiyi problemlərdən danışan nazir bildirib ki, Azərbaycan xalqı ulu öndər Heydər Əliyev fenomeni ətrafında birləşərək bütün çətinliklərin öhdəsindən gəldi. Azərbaycan cəmiyyəti öz milli dəyərlərinə sadiq qaldı. Uğur hekayəsinin əsası məhz həmin dövrdə qoyuldu.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs elan olunandan sonra 26 illik nisbi sülh prosesində danışıqlar gedib, mütəmadi görüşlər keçirilib, müzakirələr aparılıb. Siyasi danışıqlar, onların inkişaf tendensiyası göz önündə olub. Azərbaycan bütün illər ərzində danışıqlar prosesinə sadiq qalıb və problemin sülh yolu ilə həllinə çalışıb. 2020-ci il sentyabrın 27-də isə Ermənistanın Azərbaycana qarşı təxribatı daha geniş müstəviyə keçib. Bunun nəticəsində Azərbaycan BMT Nizamnaməsinə əsasən əkshücum əməliyyatına başladı. Biz bunun ilk gündən Vətən müharibəsi olduğunu bildirdik. Azərbaycan əsgəri öz torpağında döyüşdü, sərhədlərini bərpa etdi. Azərbaycan beynəlxalq humanitar hüquqa uyğun müharibə apardı.

Xarici işlər naziri deyib ki, bu gün Azərbaycanın əsas məqsədi işğaldan azad edilmiş ərazilərə soydaşlarımızın qaytarılmasıdır. Bu ərazilərə səfər edən insanları iki məqam təəccübləndirir. Həmin ərazilərdə törədilən dağıntının miqyası və qısa müddətdə Füzuli Beynəlxalq Hava Limanının tikilərək istifadəyə verilməsi, Zəngilan və Laçında hava limanlarının inşasına başlanması, yolların tikilməsi, şəhərlərin Baş planlarının təsdiqlənməsi. Biz qısa müddət sonra ilk sakinlərin torpaqlarına qayıtmasına nail olacağıq.

Konfransda çıxış edən Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, artıq Azərbaycanın milli təqvimində 8 Noyabr - Zəfər Günü var. Buna görə Ali Baş Komandanımız başda olmaqla, Azərbaycan Ordusuna, xalqımıza təşəkkür edirik. Hikmət Hacıyev qeyd edib ki, 10 noyabr üçtərəfli Bəyanatın imzalanmasından sonra Cənubi Qafqazda regional siyasət köklü surətdə dəyişib. Artıq biz yeni Cənubi Qafqaz yaradırıq. Burada Azərbaycan Respublikasının Milli təhlükəsizlik doktrinası da əsaslı şəkildə dəyişib. Nəzərə almaq lazımdır ki, müstəqilliyinin ilk günündən Azərbaycanın milli təhlükəsizlik gündəliyində torpaqlarının işğal altında olması məsələsi başlıca yer tuturdu.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad etdiyi torpaqlarında bərpa-quruculuq işləri həyata keçirir. Son 25-30 il ərzində dünya postmünaqişə dövründə və minalanmış ərazilərdə bu miqyasda bərpa-quruculuq işləri aparılmayıb. Dünyada postmünaqişə dövründə əsasən beynəlxalq təşkilatlar bu işlərə cəlb edilir. Lakin Azərbaycan işğaldan azad etdiyi torpaqların bərpasını bilavasitə öz imkanları hesabına həyata keçirir. Azərbaycan tamamilə dağıdılan 9-dan çox şəhəri yenidən qurmaq əzmindədir.




O bildirib ki, Azərbaycan qonşu Ermənistanla sülh qurmaq istəyir, buna hazırdır. O şərtlə ki, hər iki ölkə bir-birinin suverenliyini, ərazi bütövlüyünü tanısın. Dağlıq Qarabağ məsələsi artıq başa çatıb. Qarabağ bizim daxili siyasətimizdir, məsələmizdir. Ermənistan qəbul etməlidir ki, regionda vəziyyət dəyişib, bu ölkə Azərbaycana qarşı torpaq iddialarından əl çəkməlidir. Əgər İkinci Dünya müharibəsindən sonra Fransa ilə Almaniya arasında belə sülh müqaviləsi imzalanıbsa, Azərbaycanla Ermənistan arasında niyə imzalanmamalıdır? İki ölkə arasında münasibətlər bərpa olunmalıdır. Bütün beynəlxalq ictimaiyyəti bu istiqamətdə addım atmağa səsləyirik.

Tədbirdə çıxış edən Vətən müharibəsi iştirakçısı Vasif Dilavərzadə Azərbaycan hərbçilərinin şücaətindən danışıb, Ali Baş Komandana təşəkkürünü bildirib.

Türkiyə Altınbaş Universitetinin rektoru, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Çağrı Ərhan söyləyib ki, Vətən müharibəsi dövründə Türkiyədə yaşayış məntəqələrində Azərbaycan və Türkiyə bayraqları yan-yana dalğalanırdı. İşğaldan azad edilmiş ərazilərdə gördüyü dağıntılardan danışan Çağrı Ərhan dünyanın heç yerində belə səhnələrin şahidi olmadığını söyləyib. Qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə bir dənə salamat bina qalmayıb. Ermənistanın müharibə dövründə mülki əhaliyə qarşı əməlləri beynəlxalq tribunala çıxarılmalıdır. O əlavə edib ki, Qarabağ münaqişəsi artıq həll olunub, Qarabağ Azərbaycanın tərkib hissəsidir, Qarabağ Azərbaycanın daxili işidir. Ölkələr qonşularının ərazi bütövlüyünə, sərhədlərinə hörmətlə yanaşmalıdır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bu cür əsassız addımlar aradan qaldırılmayanadək sülhə nail ola bilməzik.

Rusiyanın ”Milli müdafiə” jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsinin ilk günlərində Rusiya Azərbaycan və Ermənistanla yaxşı münasibətlərdən istifadə edərək müharibəni dayandırmağa çalışıb. Ermənistanın məğlubiyyətinin qaçılmaz olduğunu gördükdən sonra bu ölkənin baş naziri Nikol Paşinyan müvafiq sənədi imzalamağı razılaşdı. Bu gün Rusiya bölgədə uğurlu sülhyaratma missiyası həyata keçirir. Ermənistanın 30 il ərzində işğal etdiyi ərazilərdə törətdiyi dağıntılardan danışan hərbi ekspert, həmçinin bu ölkənin Azərbaycanın böyük şəhərlərini ballistik raketlərdən atəşə tutduğunu xatırladıb. Prezident İlham Əliyevin böyük dövlət xadimi olduğunu vurğulayan rusiyalı ekspert Azərbaycan xalqına sülh və rifah arzulayıb.

Konfransda Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları, yerli və xarici mediaya müsahibələri, Vətən müharibəsindən sonra azad edilmiş ərazilərə səfərləri, müsahibələri əsasında hazırlanmış və Azərbaycan Ordusuna həsr olunmuş videoçarxlar nümayiş etdirilib. Konfrans çərçivəsində, həmçinin Qarabağ Dirçəliş Fondu və ”E-Media” şirkətinin dəstəyi ilə ”Qarabağ işğaldan öncə, işğalda və azad olunandan 1 il sonra” mövzusunda sərgi nümayiş edilib.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilmiş "Qarabağnamə" əsərinin təqdimat mərasimi keçirilib

***Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı və "ABC CONTENT" MMC-nin maliyyə dəstəyi ilə Xalq rəssamı Sakit Məmmədovun 8 Noyabr - Zəfər Gününə həsr edilmiş "Qarabağnamə" əsərinin təqdimat mərasimi keçirilib.***

Mərasimdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müzəffər Azərbaycan xalqının nümayəndələri, qüdrətli və qalib Azərbaycan dövlətinin vətəndaşları kimi qürurlu və şərəfli günlər yaşayırıq. 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq tarixi ədaləti və milli qürurumuzu bərpa etmişik, dünyaya xalq və dövlət olaraq öz gücümüzü, əzmimizi və iradəmizi göstərmişik. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin son 18 il ərzində milli maraqları rəhbər tutaraq həyata keçirdiyi istər daxili, istərsə də xarici siyasət Azərbaycanı tərəqqiyə və Qələbəyə aparan ən mühüm amil olub. Şübhəsiz ki, kultural ölkə olduğunu, respublikamızda müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşadığını deyən YAP Sədrinin müavini qeyd edib: "Azərbaycan vətəndaşlarının, milli-etnik və dini mənsubiyyətindən asılı olmayaraq, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşərək döyüş meydanına atılması, gənclərin Vətənin bütövlüyü uğrunda mübarizəyə qatılması milli həmrəyliyin daha bir bariz nümunəsi oldu. 44 günlük Zəfər yürüşünün nəticəsi olan möhtəşəm Qələbə Azərbaycan dövlətinin milli gücünü, xalqımızın sarsılmaz həmrəyliyini və mübarizə əzmini - bütün dünyaya nümayiş etdirdi! Azərbaycan xalqı, eyni zamanda, bəşəri dəyərlərə, dünya mədəniyyətinə həmişə həssaslıqla yanaşıb, ölkəmiz mədəniyyətlərarası dialoq məkanı kimi özünü təsdiq







Zəfər Günümüz həm müstəqillik dövrünün, həm də xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi - ən parlaq səhifəsidir. Bu, müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Qələbə dastanıdır, Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir.

Azərbaycanın tolerant və multi- edib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə apardığı işlər, göstərdiyi xidmət mütərəqqi dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır və yüksək qiymətləndirilir. Bugünkü sərgi də deyilənlərin bariz sübutu, bir azərbaycanlı rəssamın dünya ölkələrinin mədəniyyətinə baxışının və dəyərinin təzahürüdür. Artıq Zəfər siyasətinin quruculuq mərhələsi başlayıb. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı, nəhəng bərpa-quruculuq prosesinə start verilib. Hədəf Qarabağı və Şərqi Zəngəzuru nəinki Azərbaycanın, hətta dünyanın ən gözəl guşələrindən birinə çevirməkdir. Azərbaycan dövlətinin siyasi və iqtisadi qüdrəti, xalqımızın həmrəyliyi bu hədəfə çatmağa imkan verir. Bu strateji məqsəd əsasında görülən işlər isə Azərbaycanın tərəqqisində yeni mərhələnin başlanması, dövlətimizin qüdrətinin artması deməkdir".

"Əlbəttə, Azərbaycan xalqının Zəfər salnaməsi - Qələbə dastanı təkcə tarixçilərin və siyasətşünasların araşdırma-tədqiqat predmeti deyil. Bu Zəfər həm də müstəsna mənəvi əhəmiyyətə malik olduğu üçün sənət adamlarının xüsusi diqqət mərkəzindədir. Möhtəşəm Qələbəmizin ekranlaşdırılması, onun haqqında əsərlərin, o cümlədən rəsm əsərlərinin ərsəyə gətirilməsi və digər yaradıcılıq işləri bu tarixi hadisənin ictimai yaddaşda - milli təfəkkürdə əbədiləşdirilməsi baxımından çox önəmlidir. Ona görə də Xalq rəssamı Sakit Məmmədovun 8 Noyabr - Zəfər Gününə həsr edilmiş "Qarabağnamə" əsərinin təqdimatı Qələbəmizin, mədəniyyətimizin təbliği, xalqımızın yaradıcılıq, vətənpərvərlik ruhunun gücləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir.





Ardı Səh. 6

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilmiş "Qarabağnamə" əsərinin təqdimat mərasimi keçirilib



Əvvəli-Səh-5

Düşünürəm ki, bu tədbir də yeni yaradıcılıq nümunələrinin ərsəyə gəlməsinə kiçik də olsa stimul verəcək", - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

Tahir Budaqov qeyd edib ki, böyük zəfər yolunda Azərbaycan Türkiyə dövləti və xalqı ilə birlikdə addımlayıb. "Bu Qələbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla, qardaş ölkənin xalqı və rəsmi dairələrinin güclü mənəvi, siyasi dəstəyi çox böyük rol oynayıb. Türkiyənin qardaş dəstəyi Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanıb. Post-





müharibə dövründə də işğaldan azad olunmuş ərazilərimizin bərpasında biz yenə də Türkiyə dövləti və xalqı ilə bir yerdə addımlayırıq. Çox şadam ki, bu tədbirimizdə Türkiyənin Ədalət





və İnkişaf Partiyası Sədrinin birinci müavini hörmətli Binəli Yıldırım və onun başçılıq etdiyi nümayəndə heyəti də iştirak edir", - deyə Tahir Budaqov bildirib.

YAP Mərkəzi Aparatının rəhbəri çıxışının sonunda 8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan xalqını, bütün türk dünyasını təbrik edib, Azərbaycana və Türkiyəyə daim sülh, əmin-amanlıq və rifah arzulayıb.

Sonra çıxış edən Xalq rəssamı, "Qarabağnamə" əsərinin müəllifi Sakit Məmmədov tədbir iştirakçılarını salamlayaraq Zəfər Gününü ikiqat sevincini yaşadığını bildirib. O deyib: "Çünki həm Zəfər bayramımızı qeyd edirik, həm də əsərimin təqdimatı keçirilir. Bu əsəri təxminən 1 il ərzində ərsəyə gətirdim və bu Qələbəni yaşaya-yaşaya "Qarabağnamə"ni yaratdım. Əsərdə türk dünyasının elementləri var. Burada həm Azərbaycanın, həm də bütün türk dünyasının keçmişi, bu günü və gələcəyi əksini tapır. Dahi Heydər Əliyevin obrazı isə əsərin zirvəsində yer alır. Ulu öndər Heydər Əliyev elə bir böyük siyasi məktəb qoyub getdi ki, bu məktəbdən rəssamlar da bəhrələnirlər".

Xalq rəssamı qeyd edib ki, Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Prezident İlham Əliyev ötən dövrdə çox uğurlu siyasət həyata keçirib. Belə bir məşhur deyim var ki, ordu güclüdürsə, amma onun rəhbəri zəifdirsə, bu ordu məğlub olacaq. Əgər rəhbər güclüdürsə, o zaman ordu qalib gələcək. Bizim də Prezident İlham Əliyev kimi müdrik Liderimiz olduğu üçün müharibədə qalib gəldik.

S.Məmmədov mərasimdə 24 ölkənin rəmzlərinin, mədəni abidələrinin və milli ənənələrinin əksini tapdığı 24 əsərin də nümayiş olunduğunu diqqətə çatdırıb.

Mərasimdə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova deyib ki, Xalq rəssamı Sakit Məmmədovun yaratdığı əsər Zəfər salnaməsinin və hər birimizin Qarabağla döyünən ürəyinin təcəssümüdür. Rəssam əsəri bilavasitə Qələbənin təəssüratları ilə yaşayaraq yaradıb. İrimiqyaslı tablonun hər bir nöqtəsi Zəfərin duyğusu ilə doludur. Ənənəvi Qarabağnamələr konseptindən çıxış edərək burada Qarabağın tarixi, onun tanınan simvolikası, ölkəmizdə və onun hüdudlarından kənarda Qarabağın yeri və əhəmiyyəti vurğulanır. Qarabağın qədim köklərə əsaslanan tarixinin əsas məqamları yaddaşımızın dərinliklərində yaşayan obrazlar, simvollar, kodlar vasitəsilə təsviri interpretasiyasını bu əsərdə tapır. Rəssamın ifadə dili eklektikdir. Burada realistik təsvirlərlə yanaşı, tarix alleqoriyalar, müəllif reministensiyaları və fərdi üslub, opalizmin təcəssümü izlənir.

Sənətşünas alim diqqətə çatdırıb ki, əsərin ideyası müharibənin 44 günü ərzində formalaşıb. Bütöv kompozisiya isə rəssamın fərdi yaradıcılıq təxəyyülündə bir il ərzində tamamlanıb. Çoxsaylı seqmentlərdən təşkil olunan kompozisiyada Sakit Məmmədov hər bir obrazı və yaxud abidəni, süjeti aid olduğu dövrün mühüm hadisələri kontekstində, eyni zamanda, universal, dünya mahiyyətli rəmz qismində təqdim edir. Konstruktiv baxımdan kompozisiya aşağı plandan yuxarıya doğru dinamikanın artması ilə həll olunub. Bu üsulla rəssam əsərin ideyasını - Zəfərin təntənəsini Qarabağın tarixi prizmasından açıqlayır və koloristik baxımdan tamamlayır. Əsərin zirvəsində yerləşən və bütün kompozisiyanı birləşdirən obraz ulu öndər Heydər Əliyevdir. Onun portret həllində Sakit Məmmədov müəllif reministensiyalarını vurğulayır və 2018-ci ildə yaratdığı bədii-plastik həlli xatırladır. Üslubi baxımdan əsərin səthi həllində Ulu Öndərin portreti ən işıqlı seqmenti təşkil edir və nisbətən dərin perspektivdə verilib. Onun daim Azərbaycanın mühafizi, himayədarı olması ideyası rəssam tərəfindən maraqlı rakursla vurğulanır. Əsərin mərkəz xəttini tamamlayan bu əzəmətli obrazın sağında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin portreti təsvir olunub. Rəssam onun obrazını dövlətçilik tariximizə işarə edən rəmzi təsvirlərlə əhatə edir, lakin Prezidentin təsviri realistikdir, aydındır. Bu da Onun yolunun açıq-aydın olmasının, Zəfərimizin ədalətinin, Ali Baş Komandanın fərdi cəsarətinin, siyasi nüfuzunun, iradəsinin təzahürüdür.

Mərasimdə çıxış edən Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım ötən ilin bu günlərində Azərbaycanda səfərdə olduğunu xatırladaraq deyib: "Həmin günlər İkinci Qarabağ müharibəsinin son günləri idi. Səfərimizdən üç gün sonra Şuşanın azad edildiyi və Qarabağ müharibəsinin Zəfərlə nəticələndiyi xəbərini böyük məmnuniyyətlə öyrəndik. Azərbaycanın qazandığı Zəfər, eyni zamanda, bizim də qələbəmizdir. Türkiyə xalqı, 84 milyon bacı və qardaşımız sizinlə birlikdə bu Zəfəri doya-doya yaşadı. Təbii ki, bu Qələbə asan qazanılmayıb, arxasında 30 illik bir hekayə var. Haqsız yerə, beynəlxalq konvensiyalara, qaydalara əməl etməyərək Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi, 1 milyona yaxın insanın doğma yurdlarından didərgin düşməsi Azərbaycanın qanayan yarası, kədəri idi. Mustafa Kamal Atatürkün söylədiyi kimi, "Qarabağın sevinci bizim sevincimiz, Qarabağın kədəri bizim kədərimizdir". Otuz illik işğal dövrünü birlikdə yaşadıq. Bu günlər Azərbaycan paytaxtında "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçirilir. Bu konfransda da qeyd etdiyimiz kimi, əgər Birləşmiş Millətlər Təşkilatı qlobal problemlərin həlli yollarını tapa biləcək bir struktur olsaydı, bu işğalın 30 il davam etməsi mümkün olmazdı. Qərarlar verilir, amma yerinə yetirilmir. Müəyyən heyətlər yaradılır, toplantılar keçirilir, "haqlısınız" deyirlər, amma nəticə yoxdur. Belə olan halda, Azərbaycan xalqı və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev "artıq bu məsələnin həllini uzatmaq lazım deyil" dedi. Nəhayət, Zəfərlə nəticələnən 44 günlük müharibə başladı. Müharibə zamanı biz də sizin kimi eyni həyəcanı yaşadıq. Mənəvi dəstəyimizi, dualarımızı əskik etmədik, qardaşlarımızın Zəfəri üçün tək ürək olduq. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisi 44 günlük müharibədə ən gözəl formada təsdiqini tapdı. Bu müharibədə həyatını bayrağı, Vətəni, azanların susmaması üçün fəda edən bütün şəhidlərə bir daha Allahdan rəhmət diləyirəm. Məkanları cənnət, məqamları ali olsun. Qazilərə Allahdan şəfa və uzun ömür arzulayıram".

Bu gün Azərbaycan xalqının bu möhtəşəm Zəfərin qürurunu ən gözəl şəkildə yaşadığını qeyd edən Binəli Yıldırım söyləyib: "Biz də bu gün bu qürura ortaq olmaq üçün millət vəkilləri ilə birlikdə Azərbaycandayıq. Türkiyənin iqtidar partiyası olan Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr gündən-günə inkişaf edir. Partiyalar birlikdə fəaliyyət göstərir, layihələr həyata keçirir, qarşılıqlı səfərlər təşkil olunur. Məqsəd Azərbaycan və Türkiyə xalqlarının qardaşlığını, əməkdaşlığını gücləndirmək, regionda artıq müharibə deyil, sülhü və rifahı təmin etməkdir. Gələn həftə İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçiriləcək. Prezident İlham Əliyev Türk Şurasına sədrliyi türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana təhvil verəcək. Beləliklə, Türkiyə də bölgədə üzərinə düşən vəzifəni ən yaxşı şəkildə yerinə yetirəcək".

Mərasimdə möhtəşəm əsərləri nümayiş etdirilən Xalq rəssamı Sakit Məmmədova təşəkkür edən AK Parti Sədrinin birinci müavini bu əsərlərin hər birinin dərin izahı olduğunu söyləyib. Onun fikrincə, bu, əslində, Azərbaycan və Türkiyə xalqlarının tarixinin kətan üzərində əksidir, keçmişdən gələcəyə mesajdır.

Daha sonra mərasim iştirakçıları Xalq rəssamı Sakit Məmmədovun "Qarabağnamə" əsəri və təqdim olunan digər əsərləri ilə tanış olublar.

# YAP Mərkəzi Aparatında ”Qarabağ zəfəri: milli birlik və dini həmrəylik” mövzusunda görüş keçirilib

*Noyabrın 5-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının partiyanın Gənclər Birliyinin üzvləri ilə "Qarabağ zəfəri: milli birlik və dini həmrəylik" mövzusunda görüşü keçirilib. Görüşdən əvvəl torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*









YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov tədbirdə giriş sözü ilə çıxış edərək mövzu ilə bağlı fikirlərini açıqlayıb. B.İslamov bildirib ki, 44 günlük Vətən müharibəsi ilə 30 illik işğala son qoyuldu, ərazi bütövlüyümüz təmin edildi. Artıq böyük qürur hissi ilə torpaqlarımızın işğaldan azad olunduğu tarixləri bayram əhval-ruhiyyəsi ilə qeyd edirik.

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, 44 günlük İkinci Qarabağ müharibəsi tarixi hadisədir: ”Bu Qələbənin müəllifi ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Dövlət başçısı son 18 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Qələbəyə yol açdı. Azərabaycanın iqtisadi, siyasi, diplomatik, xarici siyasət sahəsində qazandığı uğurlar 30 illik işğala 44 gündə son qoymağa əsas yaratdı. Vətən müharibəsində Qələbəmizi şərtləndirən əsas amillərdən biri də milli birlik, Xalq-Prezident-Ordu birliyi, həmrəyliyidir.”

”Müharibələrdə iki cəbhə müəyyən edilir” söyləyən M.Qurbanlı qeyd edib ki, bu cəbhələr bir-birini tamamlayanda Qələbə qaçılmaz olur: ”Azərbaycan Ordusu ön cəbhədə qəhrəmanlığı, şücaəti ilə dünyanın ən güclü ordusu olduğunu nümayiş etdirdi. Ermənistan silahlı qüvvələri Azərbaycan ordusunun gücü, qüdrəti qarşısında geri çəkilərək diz çökdü. Silahlı Qüvvələrimiz kifayət qədər müasir silahlarla təmin edilmiş, ölkəmizin müharibə taktikası, döyüş əməliyyatları təkmil idi. Rəşadətli Azərbaycan Ordusu dünyanın hərb tarixinə yeni səhifə yazdı.”

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, müharibənin digər cəbhəsi diplomatik müstəvidir: ”44 günlük Vətən müharibəsində diplomatik cəbhədə səylər davam etdirildi, informasiya cəbhəsində uğurlu addımlar atıldı. Dövlət başçısı İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın müsahibələrinə diqqət yetirdikdə böyük fərq diqqəti özünə çəkirdi. İşğalçı Ermənistan hər zaman fakt qarşısında aciz qalıb. Bir məqamı xüsusi qeyd etməliyik ki, Azərbaycan dövlətinin uğurlu siyasəti nəticəsində BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni işğalçılarının bu ərazilərdən qeyd - şərtsiz çıxarılması öz əksini tapmışdı. Ümumilikdə, münaqişənin həlli üçün möhkəm hüquqi baza mövcud idi. Məhz bu amil Azərbaycanın döyüş meydanında qalibiyyətində əsas rol oynadı.”

YAP İdarə Heyətinin üzvü daha sonra vurğulayıb ki, 8 Noyabr Zəfər Günü nəinki, Azərbaycanda, ümumilikdə azərbaycanlıların yaşadığı bütün ölkələrdə bayram kimi qeyd edilir. Zəfərimiz 30 illik işğal dövrünün reallıqlarının təqdimatında, qarşıdakı dövrün prioritetlərinin müəyyənləşdirilməsində mühüm rol oynayır. Hazırda işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işləri aparılır, Böyük Qayıdışa hazırlıq görülür. Diskussiya şəklində davam edən görüşdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

## MEDİA hərbi jurnalistlərlə görüş keçirib



Dünən Medianın İnkişafı Agentliyinin mərkəzi ofisində Şanlı zəfərin ildönümü münasibəti ilə Vətən müharibəsində iştirak etmiş hərbi jurnalistlərlə görüş keçirilib. SİA-nın məlumatına görə, görüşdə müharibə şəraitində jurnalist peşəkarlığının müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Daha sonra MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov çıxış edərək müharibədə hərbi jurnalist kimi iştirak etmiş reportyorların medianın daim diqqət mərkəzində olduğunu söyləyib. O bildirib ki, Medianın inkişafı Agentliyi Vətən müharibəsinin ildönümü münasibəti ilə ”44 günlük tarix yazan Media qəhrəmanları” adlı layihəyə start verib. Sonra çıxış edən qurumun mətbuat katibi Səidə Şəfiyeva bu kimi sayaq tədbirlərin silsilə xarakter daşıyacağını bildirib.

***Kəmalə Təyyarqızı***

## Zəfər Günü münasibətilə amnistiyanın elan edilməsi minlərlə insana sevinc bəxş edəcək

***Azərbaycan 8 Noyabr Zəfər Günü ərəfəsindədir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfər bütün dünyaya yayıldı və ölkəmizin qısa bir zamandakı hərbi əməliyyatı, taktikası dünya ölkələri tərəfindən böyük maraqla qarşılandı.***

Artıq xalqımız qazandığımız qələbənin - Zəfərin birinci ildönümünü qeyd edir. Belə bir gün ərəfəsində 8 Noyabr Zəfər Günündə dövlətimiz tərəfindən humanist addımın atılması minlərlə insana böyük sevinc bəxş edəcək. Belə ki, Milli Məclis Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüs əsasında Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiyanın elan edilməsi barədə qanun layihəsini təsdiqləyib. Vətən müharibəsində qazanılmış tarixi qələbənin birinci ildönümü ilə bağlı 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi böyük bir töhfədir.



Qanun layihəsinə əsasən, təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq, Vətən müharibəsində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu müharibədə və döyüş əməliyyatlarında həlak olmuş və xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, Vətən müharibəsində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüşlərdə iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə orden və medallarla təltif olunmuş şəxslər və digərlərin müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad edilməsi təklif olunur. Ümumilikdə, amnistiya tətbiq ediləcək şəxslərin dairəsi genişdir. Bu, əlbəttə ki, müstəqillik tariximizdə böyük Zəfər aktıdır. Bu günə qədər keçirilmiş amnistiya aktlarından bu akt tamam fərqlənir. Layihədə 3 ildən artıq müddətdə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin cəzasının bu qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olduqda, çəkilməmiş cəza 6 ay azaldılacaq. Cəzaçəkmə müəssisələri, təhqiqat və ya ibtidai istintaq orqanları bu Qərar qüvvəyə mindiyi gündən 4 ay müddətində amnistiyanın tətbiqini təmin etməlidirlər və Qərar qəbul edilən gündən qüvvəyə minir.

Ölkəmiz üçün mühüm əlamətdar günlərdə, bayramlar ərəfəsində amnistiyaların verilməsi çoxsaylı ailələrə sevinc bəxş edir. Azərbaycanda bu humanist ənənənin əsasını isə Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər hakimiyyətə gəldikdən sonra əfv və amnistiya təsisatları yaradılıb, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı qəbul edilib. Ulu Öndər tərəfindən imzalanan əfv fərmanları ilə üç mindən artıq şəxs bağışlanaraq cəzalarından azad ediliblər. Ulu Öndər Heydər Əliyev böyük humanistlik nümayiş etdirərək, imzaladığı əfv fərmanları ilə 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismi bağışlanıb. Onu da xüsusi olaraq vurğulayaq ki, Ulu Öndər Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırıldı.

Ümummilli Liderin siyasətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev humanizm ənənələrini yüksək səviyyədə davam etdirərək, bir sıra əfv və amnistiya barədə sərəncamlar imzalayıb. 2007-ci ildə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi ”Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında” qərar da Ulu Öndərin əsasını qoyduğu humanizm ənənələrinin davamının təzahürüdür. Daha sonra 2009, 2013, 2016-cı illərdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüslər nəticəsində qəbul edilən aministiya aktları insanların sevincinə səbəb oldu. 2016-cı ilin amnistiya aktı 10.000-dən çox məhkumu əhatə etdi və 3.000-ə yaxın şəxs penitensiar müəssisələrdən buraxıldı. Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq, əfv haqqında imzaladığı fərman və sərəncamlar minlərlə məhkumun əfv olunmasına səbəb olub. Bu gün isə Zəfər Günü ilə bağlı amnistiya elan edilməsi minlərlə insana böyük sevinc yaşadacaq.

***Zümrüd BAYRAMOVA***



# 9 Noyabr Dövlət Bayrağı Günüdür

*Ölkəmizdə qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib.*

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Yalnız 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı. 1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Demək, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlığ olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib.

TƏHLİL

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Azərbaycan Prezidenti çıxışlarının birində bildirib: "Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir".

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşulur, vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar. "Bayraqları bayraq yapan üstündəki qandır, Torpaq, əgər uğrunda ölən varsa, vətəndir". Budur, bayrağın müqəddəsliyi və bayrağımıza olan sevgi. 44 günlük Vətən müharibəsində düşmənə dərs verən vətən oğulları Bayrağımızı uca tutdular. Bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində bayrağımız dalğalanır.

**Zümrüd BAYRAMOVA**

# YAP-ın Yasamal və Səbail rayon təşkilatlarının nümayəndələri Hərbi Qənimətlər Parkını ziyarət ediblər





*Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının Yasamal və Səbail rayon təşkilatlarının nümayəndələri 8 Noyabr - Zəfər Günü münasibətilə Hərbi Qənimətlər Parkını ziyarət ediblər.*

Ziyarətçilərə verilən məlumatda qeyd olunub ki, "Hərbi Qənimətlər Parkı"nda Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçını döyüş meydanında məğlub etməsi nəticəsində qənimət götürülən hərbi texnikanın bir qismi və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə sədləri nümayiş olunur. Parkı ziyarət edənlər Vətən müharibəsinin real nəticələri ilə daha yaxından tanış olmaq imkanı əldə edirlər. Düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə, 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir.

Partiya fəalları parkda nümayiş etdirilən Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdükləri avtomobillərin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi, yaralanması barədə faktlarla, eləcə də düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları ilə böyük maraqla tanış olublar.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev və YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev Hərbi Qənimətlər Parkını Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı Qələbəsinin əyani nümunəsi kimi dəyərləndiriblər.

Hərbi Qənimətlər Parkına ekskursiya ziyarətçilərdə xalqımızın Vətən müharibəsində qazandığı böyük tarixi Qələbə haqqında dolğun məlumat yaratmaqla yanaşı, onlara qürurverici hisslər yaşadıb.

***1926-cı ilin 6 noyabr tarixində Azərbaycan radiosunun yaradılması ölkənin ictimai-mədəni həyatında əhəmiyyətli hadisəyə çevrildi. Bu yenilik minlərlə dinləyiciyə xoş ovqat bəxş etdi. Hər kəsin evinə yeni bir ab-hava daxil oldu. Bir əsrə yaxındır ki, insanlara yol yoldaşı olan Azərbaycan radiosu tarixi bir yol keçib. XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan radio yarandığı zamandan informasiya liderliyini qoruyub-saxlaya bilib. Neçə-neçə onilliklər arxada qalıb. Xalqın bir əsrə yaxın tarixi ilə birgə yol gələn Azərbaycan radiosu keşməkşli günlərin də, xoş soraqların da tarixini əbədiləşdirib.***

# 6 noyabr - Azərbaycan radiosunun yaranma günüdür

Sirli-soraqlı dünyamızdan bizlərə məlumatları çatdıran radiomuz bu illərdə, qərinələrdə olan tariximizin keşməkeşli, uğurlu zamandan dinləyicilərinə danışıb. Bəzən sevindirib, bəzən kövrəldib, bəzən də tariximizin dönəmində bizləri düşündürüb. Nələri bizə danışmayıb. Diqqətimizi ondan çəkməmişik. Axı əsrlərin tarixindən süzülüb gələn ulu babalarımızın yaşadığı zaman, bu günün həqiqətləri radiodan eşitdiyimiz məlumatlarda bizləri böyük bir xalqın keçdiyi yol ilə baş-başa qoyub. Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən radio istənilən məkanda dinləyicilərin dostu olaraq, hər nəslin müasirinə çevrilir. Bu gün radionun bütün proqramları milli-mənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirir. Müxtəlif məzmunlu proqramlar hazırlayarkən cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Bu gün də Azərbaycan radiosuna maraq azalmayıb və hər gün dinlədiyimiz xəbərlər bizə ölkəmizin ictimai-siyasi mədəni həyatı ilə bağlı əhəmiyyətli hadisələri çatdırır.

### RADİOYA PEŞƏKAR MÜTƏXƏSSİSLƏR YOL AÇDI

Qısa da olsa Azərbaycan radiosunun yaranma günündə şərəfli, zəngin tarixi yoluna nəzər salaq. Xalqı ilə hər zaman təmasda olan, ötən və yaşanılan hadisələri dinləyicisinə çatdıran Azərbaycan radiosu "Sabahınız xeyir olsun, əziz dinləyicilər", "Axşamınız xeyir olsun, hörmətli dinləyicilər", deyərək günün istənilən zamanında dinləyicilərinə yeni xəbərləri, xoş ovqatları çatdırmağa çalışıb. Tarixi dövrü vərəqlədikcə "Satira atəşiylə", "Ədəbiyyatın vəzifələri", "Radio saatı" kimi verilişlərin səsləndirilməsi ilə ilk, kövrək addımlarını atan radio qısa bir zamanda zəngin verilişlərin yaradıcısına çevrilir. Təbii ki, radioda yeni verilişlərin hazırlanması və yeniliklər yeni, istedadlı kadrların cəlb olunmasını tələb edirdi. Radionun ilk azərbaycanlı diktorları Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov və Azərbaycan Dövlət Darülfününun hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olurlar. Azərbaycan radiosunun inkişaf etdiyi sonrakı mərhələdə isə Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Sabutay Quliyev, Ramiz Mustafayev kimi ustad diktorlar yetişirlər. Radioya peşəkar mütəxəssislərin yol açması Azərbaycan radiosunun gündəlik verilişlərinin həcminin artmasına gətirib çıxarır. İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov kimi Azərbaycan mədəniyyətində yeri və çəkisi olan sənətkarlar olur. Qısa məsafədə radionun dinləyici auditoriyası da genişlənir və Bakıda 35 kilovat gücündə yeni radio stansiyasının işə salınması ilə Azərbaycan radiosunun verilişləri Qafqazda, Özbəkistanda, Türkmənistanda, hətta Qara dənizin şərq sahillərində eşidilir. 1940-cı ilin sonunda ölkə ərazisində radio nöqtələrinin sayı 51 minə çatır. 32 rayonda yerli radio verilişləri redaksiyaları fəaliyyətə başlayır.

Azərbaycan radiosu ilə dinc və təmiz səma altında yaşayan insanlara Böyük Vətən müharibəsinin elan olunmasını - gərgin, fövqəladə, acınacaqlı bir xəbəri ictimaiyyətə çatdırmaq nə qədər çətin olsa da, bu gerçəkliyi hamıya bəyan etdi. 1941-ci il iyunun 22-nə keçən gecə müharibənin başlanmasını Azərbaycan dinləyicilərinə diktor Zəhra Salayeva zirzəmidəki yarımqaranlıq bir otaqdan xəbər verir. Həmin zamandan 5 il müddətində Azərbaycan radiosunun işçiləri faşizmlə mübarizədə mikrofonu ən kəsərli silaha çevirirlər. Müharibə dövrünün tələblərinə uyğun olaraq radio buraxılışları çox qısa müddətdə hazırlanır, verilişlər gecə-gündüz ara vermədən yazılır və montaj edilirdi. Ağır müharibə dövrünün ən çox dinlənilən verilişi "Azərbaycan - cəbhə üçün"ü hər kəs böyük həyəcanla gözləyirdi. Əsas ağırlıq isə, təbii ki, "Son xəbərlər" redaksiyasının üzərinə düşürdü. Hər gün dinləyiciyə mühüm məlumatlar, dövlət qərarları 30 dəqiqə ərzində tərcümə edilərək, Azərbaycan dilində çatdırılırdı. Elə qələbə sorağını da Azərbaycan dinləyicisi radio vasitəsilə eşidir. Həmin dövrdə SSRİ rəhbərliyi radionun ictimai-siyasi, mədəni həyatda və faşizmə qarşı mübarizədə oynadığı böyük rolu nəzərə alaraq, 1945-ci il mayın 2-də xüsusi qərarla mayın 7-sini Radio Günü elan edir. Bu tarixi gün uzun illər boyu Azərbaycanda da bayram edilir. Amma tarixi ədalət qələbə çalır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan radiosunun yaranma günü - noyabrın 6-sı "Azərbaycan Televiziya və Radio işçilərinin peşə bayramı" elan olundu.

Azərbaycan radiosunun böyük bir dövrü Ulu Öndər Heydər Əliyevin ideyalarından bəhrələnib, cəmiyyətin ən müxtəlif təbəqələrinin arzu və maraqlarını əks etdirib. Bir çox nəzəriyyəçilərin və təcrübəli jurnalistlərin gəldiyi qənaətə görə, Ulu Öndər Heydər Əliyev teleradio ilə təbliğatın, əsasən, tarixi-siyasi, milli əxlaqi, elm-maarifçilik istiqamətlərinə öz çıxış və məruzələrində ideyalar verirdi.

### AZƏRBAYCAN RADİOSUNDA YENİ MƏRHƏLƏ

Ötən əsrin 70-ci illəri Azərbaycan radiosu üçün, xüsusilə əlamətdar olmuşdur. "Sabahınız xeyir", "Axşam görüşləri", "Bulaq", "Nətəvan" qızlar klubu, "Lirika dəftərindən", "Muğam saatı", "Arzu" musiqi poçtu, "Yazıçı və zaman", "Mahnı şəhəri gəzir", "Teatr mikrofon qarşısında" kimi verilişlər radionun nüfuzunu daha da yüksəldir. Bu verilişlərdə xalqın ruhu, onun folklor irsi, tarixi mədəniyyəti kimi dəyərlər öz əksini tapır. Milli maraq və düşüncədən qaynaqlanan bu verilişlərin hazırlanması Ulu Öndər Heydər Əliyevin radioya ayırdığı diqqətdən irəli gəlirdi. Heydər Əliyev radionun böyük təbliğat mexanizmi olaraq aşıladığı dəyərlərin mahiyyətini müdrikcəsinə anlayırdı. Hər bir ailənin sevilən verilişi olan "Bulaq" belə milli verilişlərin ilk qaranquşu oldu. Ulu Öndərin xeyir-duası ilə fəaliyyətə başlayan bu radiotoplu ilk dəfə Azərbaycan efirinə şifahi nitqin ən koloritli, milli, etnoqrafik, xalq düşüncə tərzi ilə cilalanmış nəfəsini gətirdi. Radio dalğaları ilə Şərqə yayımlanan "Bulaq" xaricdəki soydaşlarımızın arzu və istəklərini vahid dil, düşüncə, ortaq Vətən duyğularını ifadə edən məktubları efirdə səsləndirdi. Ulu Öndərin göstəriş və məsləhəti əsasında daha sonra "Ozan" teletoplusu yaradıldı və tezliklə ümumxalq məhəbbəti qazandı. Radionun yaxın keçmişinə yazılan tarixi də Onun prinsipial mövqedən çıxış etdiyini bir daha göstərir. 1988-ci ildə başlanan Dağlıq Qarabağ münaqişəsi zamanı radio Azərbaycan xalqının maraqlarından çıxış etdi. Bu, 1990-cı ilin yanvarında özünü daha da qabarıq şəkildə göstərdi. Sovet imperiyası təkcə xalqı deyil, həm də Azərbaycan radiosunu susdurmağa cəhd edir. Mənbələrdə yazılır: "...Televiziyanın enerji blokunu partladıb sıradan çıxarmaqla yanaşı, radionun əməkdaşları da efirdən uzaqlaşdırılır. Radioda hərbi senzor fəaliyyət göstərirdi. Matəm içində olan ölkəmizə komendantın həqiqətdən tamamilə uzaq, iftira dolu məlumatlar ötürülürdü. Lakin həmin faciəli günlərdə



Azərbaycan radiosunun xaricə yayım redaksiyası 20 Yanvar faciəsinin baş verməsini bütün təfərrüatı ilə dünyaya çatdıra bildi".

### 30 İL SONRA AZƏRBAYCAN TELEVİZİYASI FƏALİYYƏTƏ BAŞLADI

Azərbaycan televiziyası radiodan 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başladı. İlk veriliş günü ekranda gənc aktrisa Nəcibə Məlikova göründü. Çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə Məlikova tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. 1957-ci ildən Azərbaycan televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı və verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artmışdı. 70-ci illərdən etibarən Azərbaycan televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ilin yanvarından isə televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi.

1956-cı ildə Bakı televiziya studiyası və Radioinformasiya idarəsi ayrılıqda fəaliyyət göstərirdi. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 1991-ci ildə komitə şirkətə çevrildi. 2005-ci ildən isə Azərbaycan Prezidentinin sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi. 1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyə hazır olmadığından Azərbaycan televiziyası informasiya siyasətini qura bilmirdi. Separatçıların Xankəndidə keçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan televiziyası yalnız 10 gündən sonra - hökumətin icazəsi ilə "Qarabağda yaranmış vəziyyət" adı altında efirə verdi. Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun addımlarına qarşı çıxaraq Azərbaycan Konstitusiyasına, beynəlxalq hüquq normalarına əməl edilməsini, erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarəolunmaz ictimai-siyasi vəziyyəti, xalqın haqlı tələblər irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan televiziyasının enerji bloku partladıldı.

Azərbaycan televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. 2004-cü ilin fevralından başlayaraq AzTV-nin proqramlarının Avropa ölkələrində daha keyfiyyətli yayımı təmin edildi. Bu məqsədlə Teleradio İstehsalat Birliyinin mütəxəssisləri teleqüllə kompleksində yeni rəqəmsal TV - Up-link stansiyasını quraşdırdılar. İndi Azərbaycan televiziyasının verilişləri həmin stansiyadan Avropaya "Hot Bird", Şimali Amerikaya "Galaxy 25", Asiyaya isə "Azerspace-1" peykləri vasitəsilə yayılır. 2007-ci ildə Avropaya yayımın texniki müvafiqliyinə görə Azərbaycan Televiziyası "Avropa keyfiyyəti" medalına layiq görülmüşdür. Sonrakı illərdə Space TV, İTV, ATV kimi televiziya kanalları fəaliyyətə başladı. Bu gün Azərbaycan televiziyası və radiosu yeni dövrünü yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Armen Aşotyan: “Nikol yenə yalan danışır”




***Paşinyan növbəti dəfə yalan danışır və deyir ki, erməni qoşunları Sünik sərhədindən çıxarılmasaydı, yeni müharibə başlayacaqdı. SİA xəbər verir ki, bu sözləri Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan bu gün keçirdiyi mətbuat konfransında söyləyib. Armen Aşotyan, ilk növbədə, qoşunların çıxarılması haqqında əmrin etibarlılığını şübhə altına alan bir neçə faktı açıqlayıb.***

”Birincisi, qoşunları Zəngilandan və Qubadludan çıxarmaq lazım idisə, noyabrın 9-da niyə bu sənəddə yazılmayıb? Axı Putin-Əliyev-Paşinyan sənədi imzalananda bu sənəddə qrafikə uyğun olaraq bütün bölgələr göstərilmişdi. Bəs niyə orada Zəngilan və Qubatlunu qeyd etmirlər?”, deyə Aşotyan sual ünvanlayıb.

Armen Aşotyanın fikrincə, müharibə dayandırılıbsa və erməni tərəfinə qoşunların çıxarılması tələbi təqdim olunmayıbsa, bu, yeni müharibənin başlaya bilməyəcəyi anlamına gəlir.

”İkincisi, dekabrın 17-də, xəyanətkar sənədin imzalanmasından təxminən 40 gün sonra Nikol bəyan edir ki, əgər qoşunlar çıxarılmasaydı, müharibə başlayardı, o zaman xatırlamalıyıq ki, Rusiya atəşkəs və atəşkəsin təminatçısıdır. Niyə 40 gündən sonra Nikol bizi müharibə ilə qorxudur, bir halda ki, noyabrın 9-da Rusiyanın zəmanəti ilə artıq atəşkəs bağlanıb? deyə Armen Aşotyan qeyd edib.

Aşotyanın sözlərinə görə, qoşunların çıxarılması ilə bağlı konkret tələb olmadığı halda, Gorus-Qafan yolunun mühafizəsiz qaldığı halda yeni müharibənin real riski, qoşunların belə geri çəkilməsi konkret nəticələr çıxarmağa əsas verir.

”Niyə qoşunları elə bir məsafəyə çəkdi ki, Gorus-Qafan yolu mühafizəsiz qaldı? Axı siz prosesdəsinizsə və bir az da vətəninizi sevirsinizsə, ağıllısınızsa, deyə bilərsiniz ki, mən qoşunları çıxarıram və delimitasiya məsələləri həll olunana qədər, deyək ki, demarkasiya və digər problemlərinin həll olunması üçün Gorus-Qafan yolunda 5 kilometrlik bufer verirəm”, deyə Armen Aşotyan fikirlərini yekunlaşdırıb. Onun sözlərinə görə, sadə təhlil nəticəsində yalnız bir nəticə çıxarmaq olar ki, Nikol yenə yalan danışır, yenə ”ermənilər” aldadıb və bunu kinli şəkildə bəyan edir, çünki o, cəzasız qalıb.

***İnam Hacıyev***

# “Üçtərəfli görüşdə Zəngəzur dəhlizinin açılması gündəmdə olacaq”

“Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının görüşündə 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixində imzalanmış bəyanatın bəndləri müzakirə olunacaq”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Məmmədov deyib.



Onun sözlərinə görə, həmin sazişdəki icra olunmayan bəndlərin müzakirəsi gözləniləndir: ”Bundan əlavə Rusiya ilə Ermənistanın götürdüyü öhdəlikləri yerinə yetirməməsi məsələləri var. Hesab edirəm ki, Azərbaycan tərəfi olaraq biz bu məsələləri qaldıracağıq. Həmçinin Zəngəzur dəhlizinin açılması gündəmdə olacaq. Ən vacib məsələlərdən biri bu gün hələ də Azərbaycan ərazisində 30 ildir ki, öz mövcudluğunu saxlayan separatçı, cinayətkar, terrorçu qurumun qalması məsələsi gündəmə gətiriləcək. Azərbaycan ərazisindən separatçıların, cinayətkarların, terrorçuların təmizlənməsi məsələsi hesab edirəm ki, Azərbaycan tərəfindən tələb kimi qoyulacaq. Bununla yanaşı sülh razılaşması məsələsi, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsi gündəmdə olan məsələlərdir. Hesab edirəm ki, burada eyni zamanda Rusiya sülhməramlılarının sülhməramlılığa aid olmayan, Azərbaycan qanunlarına zidd olan separatçılarla əməkdaşlıq məsələləri də ciddi şəkildə müzakirə olunacaq”.

***Arzu Qurbanzadə***

# 8 noyabr Zəfər Günü - Haqqın, ədalətin, bütövlüyümüzün qələbəsidir

***"Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən Ulu Öndər Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir.***



**SEYFƏDDİN ƏLİYEV,**
**YAP Masallı rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən**

Məhz elə buna görədir ki, 18 il əvvəl ”Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam” məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl LİDER ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin ”Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır” fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan LİDERDİR. Və bu gün Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazır.

Bu gün böyük sevinc və qürurla hər günü bir əsrə bərabər olan 44 günlük qələbəmizin bir ilinin - 8 noyabr, 2020-ci il Zəfər Günümüzün qeyd olunduğu gündür. Bu 30 illik arzularımızın, xəyallarımızın, yuxularımızın gerçəyə çevrildiyi, Qarabağa qovuşduğumuz Qələbə tariximiz, Zəfər Günümüzdür. Müzəffər Ordumuz 44 gün ərzində döyüş mey-




danında gücünü göstərdi və qəhrəmanlıqla savaşaraq qələbə qazandı. Ali Baş Komandanımızın qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırıldı və 8 noyabr şanlı tariximizə Qələbə Günü kimi yazıldı. Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşa mənfur düşmən tapdağından qurtuldu. 10 noyabr gecəsi isə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: ”Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır”.

Bəli, o gün Dağlıq Qarabağ münaqişəsinə nöqtə qoyulduğu gün oldu. 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində Vətən savaşı qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidentinin ”Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alındı. Həmçinin, Vətən Müharibəsindəki böyük qələbəmizi 2020-ci il dekabrın 10-da Qələbə Paradı keçirildi. Qələbə bayrağımızı parada gətirilməklə qailb ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirməklə hərbi gücümüzü dünyaya nümayiş etdirdik.

Ölkə rəhbərimiz, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: ”Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”. Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası!

Bəli, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi. 8 noyabr Zəfər Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır!

# 8 noyabr Zəfər Günü - Həmrəylikdən Dəmir yumruğa gedən yol

***2020-ci il, 8 noyabr. Azərbaycanın yeni yazılmış tarixi, Qarabağımızı qovuşduran Zəfər tarixi. Ərazi bütövlüyümüzün, haqq və ədalətin bərpa olunduğu, Qarabağ Azərbaycandıra qovuşduğumuz qələbə tariximiz. Bu tarixi Qələbə Zəfəri ilə bağlı dövlət başçımızın "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 2 dekabr tarixli Sərəncamı hər birimizdə böyük sevinc hissi doğurdu. Sərəncama əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycanda Zəfər Günü kimi, sentyabrın 27-ni isə Anım Günü kimi qeyd edilməsi qərara alınmışdır.***



MUXTAR NAĞIYEV,
YAP Səbail rayon təşkilatının sədri

ŞƏRH

Ancaq noyabrın 10-nun Türkiyədə Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Zəfər Gününün tarixinin dəyişdirilməsi barədə qərar qəbul etdi. Hər bir azərbaycanlı üçün əziz olan Qarabağın incisi Şuşa şəhərinin noyabrın 8-də iyirmi səkkiz illik əsarətdən qurtarıldığı gün müharibənin taleyində həlledici rol oynamaqla yanaşı, həm də düşmənin siyasi-hərbi rəhbərliyinin məğlubiyyətinin etiraf etməsinə və hərbi əməliyyatları dayandırmasına səbəb oldu. Belə bir fikir var: tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa! Bəli 8 noyabrda Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun və rəşadətli əsgər və zabitlərimizin şücəati ilə 8 noyabrda göz bəbəyimiz Şuşamız işğaldan azad olundu. Üçrəngli Bayrağımız Şuşamızda dalğalanmaqdadır.

### Xalq-İqtidar- Ordu birliyinin "Dəmir yumruqla" Zəfər Günü yazıldı

Prezident İlham Əliyev: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir". Bu sözləri dövlət başçımız Prezident İlham Əliyev dekabrın 29-da dünya azərbaycanlılarını təbrik edərkən bildirmişdir. Qalib Sərkərdə, Prezident İlham Əliyev bildirib ki, bu qələbə xalq-iqtidar-ordu birliyinin Şanlı Zəfər Qələbəsidir: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir".

Bəli, bu qələbə xalq-iqtidar-ordumuzun birliyinin nəticəsidir. Elə 2020-ci il dekabrın 10-da "Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı, məhz Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş idi. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadəti ilə dünya müharibələrində qazana bilmədiyi 44 gün ərzində qazandığı Qələbə Zəfəridir. Qarabağ Azərbaycandıra Qalib sərkərdəmizin Qarabağa səfərləri ilə həmin nidanı qoyduğu Zəfəridir.



"...Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb...". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev düşmən tapdağından azad edilən torpaqlarımıza səfərləri zamanı bildirib. Bu səfərlər həm də Ali Baş Komandanımız, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim xalqla yumruq kimi birliyinin, Azərbaycanın milli-mənəvi dəyərlərinə, mədəniyyət abidələrinə xüsusi önəm verməlerinin göstəricisidir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən 2783 nəfər igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Bu qələbə bir xalq kimi bizim gücümüzü, güclü xalq olduğumuzun dünyaya sübutu idi. Bunu düşmən də, onun havadarları da gördü. Gördülər ki, ötən 30 ildə Azərbaycan öz haqlı davasından bir addım da geri çəkilməyib və Azərbaycan Prezidenti döyüş meydanında tarixi ədaləti bərpa etməkdə qərarlıdır. Bu, işğalçını sülhə məcbur etmək, düşmənə layiq olduğu yeri göstərmək üçün əsil ölüm-qalım mübarizəsi idi. Biz həm də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin arzusunun, onun öz davamçısına vəsiyyətinin tarixi reallığa çevrilməsini gördük. Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirməklə Azərbaycan tarixinə şanlı səhifə yazdı. Doğma xalqı qarşısında bütün zamanların ən dəyərli missiyasını uğurla həyata keçirən Böyük Sərkərdənin başçılıq etdiyi müzəffər ordu 1992-ci il mayın 8-də əlimizdən zorla alınan Şuşanı da 2020-ci ilin noyabrın 8-də doğma nəfəslərlə isindirdi.

Bu gün bu şanlı tarixin yazılmasının əsas memarı - Ali Baş Komandan, Qalib Sərkərdə İlham Əliyev cənabları son 18 ildə yumruq siyasəti nəticəsində, xalq-iqtidar birliyinin yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşməsidir ki, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoydu. Və xoş xəbərləri xalqına özü birbaşa çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər işğaldan azad olan torpaq müjdəsini səsləndirəndə "Qarabağ Azərbaycandır!" deyərkən simvolik olaraq yumruğunu da qaldırdı. Bunun da məntiqi mənası odur ki, həmrəy olub bir yumruq kimi birləşib Qarabağı düşməndən azad etdik. Bu birliyin köməyinə həmrəylik gəldi. "Dəmir yumruq" həmrəylik gücümüzün simvoluna çevrildi. Həmrəylikdən gələn 30 illik haqq yolu dəmir yumruğa çevrilib düşmənin saxtalaşdırdığı illərin yalanını üzə çıxardı. Ədalətimizi həmrəylik gücü ilə bərpa etdi.Ölkə rəhbərimiz, Ali baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası! Bəli, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi, hər il 8 noyabr Zəfər Günü kimi təntənəli qeyd olunacaq. Bir sözlə, 8 noyabr, 2020-ci il - Qələbə, həmrəylik bayramının haqqını verə bildik öz qələbəmizlə, yekdil birliyimizlə... Zəfər Günümüz mübarək, Azərbaycan! Həmişə birlikdə olaq! Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

# Azərbaycanda əmək pensiyalarının orta aylıq məbləği artırılır



Azərbaycanda 2022-ci ilin sonunda əmək pensiyalarının orta aylıq məbləğinin 343,17 manat təşkil edəcəyi proqnozlaşdırılır. SİA-nın məlumatına görə, bununla bağlı məsələ "2022-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.

Qanun layihəsi Milli Məclisə daxil olub və komitə iclaslarında müzakirəyə çıxarılacaq. 2021-ci ilin sonuna isə bu rəqəmin 327,50 manat olacağı proqnozlaşdırılır.

# İsa Qəmbər Etibar Məmmədovdan DANIŞDI

### "Aramızda seçki qarşıdurması olub"

"Etibar Məmmədovla heç vaxt dost olmamışıq. Universitetin tarix fakültəsində oxumuşuq. Etibar Məmmədov məndən 1 kurs yuxarı, Pənah Hüseyn isə 1 kurs aşağı oxuyurdu. İkinci kursda oxuyanda Azərbaycan Tarixi Dərnəyinə qoşuldum. Pənahla da, Etibarla da orada tanış olmuşam".

SİA xəbər verir ki, bunu Müsavat Partiyasının sabiq başqanı, təşkilatın Məclis üzvü İsa Qəmbər AMİP lideri Etibar Məmmədovla hansı səbəblərə görə münasibət saxlamamasına aydınlıq gətirərkən bildirib.

Müsavatın eks-başqanı vaxtilə Etibar Məmmədovla münasibətlərinin normal olduğunu deyib, lakin sonrakı siyasi proseslərdə fikirlərinin uzlaşmaması səbəbindən bu münasibətlərin pozulduğunu bildirib. "Etibar Məmmədovla hərəkat dövründə kifayət qədər yaxın olmuşuq. Sonradan mövqelərdə fərqlər atdığına görə... Aramızda seçki qarşıdurması da olub", deyən İsa Qəmbər bu situasiyanı normal hesab etdiyini bildirib: "Normal hesab edirəm. Etibar Məmmədovla birgə olmağımızın yeganə yolu o ola bilərdi ki, hadisələrə, proseslərə baxışlarımız yaxın olsun, amma təəssüflər olsun, belə olmayıb".

Qeyd edə bilərik ki, İsa Qəmbər 2003-cü ilin prezident seçkilərində namizəd kimi çıxış edirdi və bu məsələdə ona Qərbin bir sıra qurumları, həmçinin konkret şəxsləri dəstək göstərirdilər. Lakin sonradan Qərb İsa Qəmbərə dəstəyini dayandırdı. Buna səbəb kimi isə müxalifətin vahid namizədinin olmaması, digər müxalifətçi partiya sədrlərinin də namizəd kimi seçkilərə qatılması göstərildi. Xüsusilə, müxalifətdən AMİP-in o zamankı sədri Etibar Məmmədovun namizədliyini verməsi, digər bir müxalifət partiyasının - AXCP sədri Əli Kərimlinin Etibar Məmmədovun namizədliyini dəstəkləməsi də İsa Qəmbərin Etibar Məmmədovla münasibətlərinin kəskinləşməsinə gətirib-çıxardı.

**Rövşən RƏSULOV**



# Şəhid ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunublar

## Səbail rayonundan olan qazilərlə görüş keçirilib





44 günlük Vətən müharibəsi ilə əlaqədar Səbail rayonundan olan qazilərlə görüş keçirilib. Görüşdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı, YAP Səbail rayon təşkilatının üzvü Hacan Hacıyev, Fəxriyyə Xələfova, qazi Həşim Mədətov, Fərid Həsənov və digər qazilər də çıxış edərək 44 günlük Zəfər və Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasət haqqında öz fikirlərini səsləndiriblər.

Çıxış edən M. Nağıyev ordu quruculuğu, Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyindən və gənclərin müharibə vaxtı göstərdiyi şücaətdən danışaraq Azərbaycan xalqının 30 illik əsarətdən necə xilas olduğunu bir daha xatırladıb. Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildiyini vurğulayaraq Azərbaycanın qalib ölkə olduğunu bir daha söyləyib. Sonda bütün qazilər mükafatlandırılıb.

***Rəfiqə***

## İsmayıllıda şəhid polkovnik-leytenant Ruslan Tağıyevin ildönümü keçirilib





İsmayıllı rayonunda 44 günlük Vətən müharibəsində torpaqlarımızın müdafiəsi uğrunda öz canından keçən şəhid qəhrəmanımız polkovnik-leytenant Ruslan Tağıyevin ildönümü ilə bağlı anım mərasimi təşkil olunub. Tədbirdə YAP İsmayıllı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Sevil Əhmədova, İsmayıllı rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov, Milli Məclisin deputatları Novruzəli Aslanov, Tahir Kərimli, hüquq-mühafizə orqanlarının rəhbərləri, eləcə də şəhidin döyüş yoldaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Anım mərasimində şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışılıb. Şəhid valideynləri dövlətin göstərdiyi diqqət və qayğıya görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildiriblər.

Tağıyev Ruslan Fuad oğlu 1982-ci il iyunun 12-də İsmayıllı rayon Qubaxəlilli kəndində dünyaya göz açıb. 1999-2003-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursant olmuşdur. 2003-cü ildə hərbi məktəbi müvəffəqiyyətlə bitirərək, 2004-cü ildə Naxçıvan Muxtar Respublikası Sədərək rayonunda "N" saylı hərbi hissədə 5-ci tabor kəşfiyyat tağım komandiri kimi hərbi xidmətə başlamışdı. 2005-ci ildə Naxçıvan M.R. Kəngərli rayonu "N" saylı hərbi hissəsində kəşfiyyat bölük komandiri vəzifəsinə irəli çəkilir. 2010-2012 ci illərdə Naxçıvanın Culfa rayonunda "N" saylı hərbi hissədə Kəşfiyyat bölmə rəisi vəzifələrini icra etmişdi. 2014-2017-ci illərdə Şəmkir rayonu "N" saylı hərbi hissədə kəşfiyyat şöbə rəisinin baş köməkçisi, 2017-2020-ci illərdə "N" saylı hərbi hissəsində baş zabit vəzifəsində çalışmışdı. Naxçıvanda qulluq edərkən Günnüt əməliyyat planının hazırlanması və icra olunmasında iştirak etmişdir. Fəaliyyətinə görə, vaxtından əvvəl ona kapitan rütbəsi verilmişdi. 2019-cü ilin fevral-avqust aylarında Çin Xalq Respublikasında təkmilləşdirmə kursunu bitirmişdi. Növbəti arzusu Türkiyədə ATASEREN-də (Milli Savunma Universitesi) doktorantura təhsilini almaq idi və bununla bağlı imtahanlardan da keçmişdi. Oktyabr ayında təhsilə başlayacaqdı, lakin bu arzusu ona qismət olmadı. Tale arzularını başa çatdırmasına imkan vermədi.

Müharibə başlayanda Ruslan Tağıyev artıq polkovnik-leytenant idi. Tağıyev Ruslan Fuad oğlu 2020-ci il noyabrın 4-də Vətən müharibəsində Laçın istiqamətindəki döyüşlərdə üreyindən aldığı qəlpə yarasından şəhid oldu. Hər zaman qəlbində vətənpərlik hissi ilə yaşamış, bu yolda öz canını da qurban vermişdi və son nəfəsində isə tək istəyi son bir dəfə övladlarının qoxusunu nəfəsinə çəkmək idi. Özündən geriyə isə 3 övladı - 12 yaşlı Fuad, 8 yaşlı Polad və 3 yaşlı Nurayı bizlərə əmanət qalıb.

Ruslan Tağıyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidimiz 2-ci Fəxri Xiyabanda dəfn olunmuşdur. Allahdan bütün Şəhidlərimizə rəhmət diləyir, onları dərin ehtiramla anırıq.

***ZÜMRÜD BAYRAMOVA***

## Qubada şəhid Səlim Sultanovun məzarı ziyarət olunub





YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən torpaqlarımızın azadlığı uğrunda canından keçərək, şəhadətə yüksəlmiş Quba rayonunun Zərqava kəndindən olan qəhrəman vətən oğlu Sultanov Səlim Sultan oğlunun ildönümü ilə əlaqədar şəhidin ailəsi və Zərqova kənd qəbiristanlığındakı məzarı ziyarət olunub, əziz xatirəsi ehtiramla anılıb. Xatırladaq ki, Şəhidimiz cəbhənin Füzuli, Xocavənd və Xocalının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Noyabr ayının 2-də Xocalı rayonu ətrafında gedən qanlı döyüş zamanı Səlim şəhid olub. Sultanov Səlim Sultan oğlu şəhadətindən sonra Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub. Səlim 2020-ci ilin noyabrın 4-də Zərqova kənd qəbiristanlığında dəfn olunub.



YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda canından keçərək, şəhidlik zirvəsinə ucalıblar. Torpaqlarımızın azadlığı, Vətənimizin düşmən tapdağından azad olması üçün canından keçən Azərbaycanın mərd oğulları-şəhidlərimiz, qazilərimiz bizim qürur mənbəyimizdir.

Sonra Y.Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və ailəsinə səbr diləyib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Tərtər rayon təşkilatının fəalları Mamırlı kəndində ucaldılmış xatirə kompleksinin açılışında iştirak ediblər






05 noyabr 2021-ci il tarixdə YAP Tərtər rayon təşkilatının rəhbərliyi və fəalları, rayon icra hakimiyyəti, hüquq-mühafizə orqanları və rayonun ictimaiyyət nümayəndələri Birinci Qarabağ müharibəsi və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən 44 günlük Vətən müharibəsi döyüşlərində həlak olmuş şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədi ilə rayonun Mamırlı kəndində ucaldılmış xatirə kompleksinin açılışında iştirak ediblər. Ziyarətçilər abidə önünə gül- çiçək dəstələri düzmüşlər, onların əziz xatirəsini ehtiramla yad etmişlər.

Allah şəhidlərimizə rəhmət eləsin.

***Rəfiqə***

# Zəngəzur dəhlizi: Azərbaycanın regionda yaratdığı yeni reallıq!




***Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbədən sonra regionda yeni reallıqlar formalaşdı. Bu istiqamətdə önəmli məsələlərdən biri də Zəngəzur dəhlizidir. Bu dəhliz hələ sovet dövründə aktual məsələ olsa da, Ermənistan rəhbərliyi elə o dövrdə də bu dəhlizin açılmasına mane olmuşdu. Azərbaycanın regionda yaratdığı mövcud vəziyyət isə bu dəhlizin açılmasını artıq reallığa çevirib.***

Kanada Qlobal Münasibətlər İnstitutunun elmi işçisi Robert Katler bildirir ki, atəşkəs sazişi Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təşkil olunmasına imkan verəcək dəhlizin açılmasını nəzərdə tutur və orada həqiqətən bərpası mümkün olan dəmir yolu mövcuddur: ”Amma Ermənistan Zəngəzur dəhlizindən keçməyən daha uzun dəmiryol marşrutunun açılmasında təkid edir. Bu marşrut daha uzun vaxt aparacaq, eyni zamanda onun bərpası və təmiri daha baha başa gələcək”.

Daha əvvəl Türkiyənin BOTAŞ enerji şirkəti Naxçıvanla Ermənistan sərhədində iri zavodun tikintisində maraqlı idi. Əgər bu məqsəd üçün Ermənistanın cənub hissəsində boru kəməri tikmək mümkün olsaydı, bu, iqtisadi inkişafa ethiyacı olan bölgədə emal kompleksinin tikintisi sayəsində yeni iş yerlərinin yaradılmasına imkan verəcəkdi”.

Milli Məclisin deputatı Vüqar Bayramov isə belə hesab edir ki, Zəngəzur dəhlizinin reallaşması bütövlükdə regionun inkişafı üçün vacib layihələrdən biridir:

”Zəngəzur dəhlizi təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru yolun bərpasına imkan verməyəcək, eyni zamanda bütün region ölkələrinin bu dəhlizdən faydalanmasına imkan yaradacaq. Bununla yanaşı, bu dəhlizin reallaşması region üçün vacibdir. Azərbaycan və Türkiyə regionda 6-lıq əməkdaşlıq platformasının yaradılmasını dəstəkləyir. Bu o deməkdir ki, Zəngəzur dəhlizinin reallaşması region dövlətləri üçün də iqtisadi baxımdan faydalıdır. Həmçinin, Ermənistan da bu dəhlizdən faydalana biləcək.

Ermənistan iqtisadiyyatındakı mövcud vəziyyəti nəzərə alsaq, bu ölkədə müşahidə edilən tənəzzülün aradan qaldırılması üçün yeganə yol kommunikasiyaların paralel bərpasıdır. Revanşist meyillərlə Ermənistanda müşahidə edilən tənəzzülü aradan qaldırmaq mümkün deyil”.




ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza qeyd edir ki, Zəngəzur dəhlizi investisiyaların cəlbi, yeni iş yerlərinin açılması və sənaye müəssisələrinin bərpası üçün fürsətə çevrilə bilər:

”Bu dəhliz həm Ermənistan, həm Azərbaycan, həm də Türkiyə üçün iqtisadi əlaqələrin bərpasında böyük imkanlar yaradacaq. Zəngəzur dəhlizi Ermənistanın region iqtisadiyyatına inteqrasiyasına kömək edəcək. Ümid edirəm ki, qısa zamanda erməni siyasətçilər müharibədəki məğlubiyyət şokundan xilas olacaqlar və ölkədəki qərbyönümlü çoxluq ”Böyük Ermənistan” mifindən əl çəkməyin və birlikdə ölkələrini yenidən qurmağın vaxtı gəldiyini başa düşəcəklər”.

Ümumilikdə qeyd etmək lazımdır ki, regionda kommunikasiya xətlərinin açılması və iqtisadi əlaqələrin qurulması sülh şəratinin formalaşmasına təkan verəcək başlıca amillərdir. Ermənistan siyasi rəhbərliyi də illərdir Ermənistanı yuvarladıqları iqtisadi uçurumun dibindən qurtarmaq üçün Azərbaycanın diktə etdiyi reallıqları qəbul etməyə məcburdurlar.

# Nikol pul bölgüsündə haqsızlıq edir?



*"...Əgər təhlükəsizliyinizi təmin edənlərlə əhatə olunmusunuzsa, bu halda səxavətli olmaq lazımdır, yoxsa pul verdiklərin səni yaxşı qoruya bilməz". Deyim ki, bu fikirlər təqribən 500 il bundan əvvəl yaşamış italyan filosof Nikkolo Makiavelliyə məxsusdur. Ermənilər bu misalı baş nazirləri Nikol Paşinyana rəşmən çəksələr də, amma belə görünür ki, bunu elə-belə çəkmirlər.*

Belə ki, onlar baş nazir Nikol Paşinyanın gələn il ölkənin polis və Milli Təhlükəsizlik Xidməti əməkdaşlarına ayrılan vəsaiti artırmaq niyyətində olduğu barədə ”duyuq düşüblər”. Məsələ bundadır ki, bunu absurd hesab edən ermənilər hətta bunu gözlərinin qabağında baş verən cinayət kimi təqdim etməkdən də çəkinmirlər. Doğrudan da, bu necə olur, müharibə zamanı ağır itki verən erməni ordusunun maliyyəsi azaldılır... və vəsaitin çoxu müharibə vaxtı fərarilik edən asayiş keşikçilərinə tərəf yönəldilir. Maraqlıdır ki, bu yaxınlarda ermənilərin ədliyyə nazirliyi təkliflə çıxış edərək baş prokuror və onun 4 müavininə hər ay maaşlarının 90-120 faizi məbləğində əlavə ödəniş edilməsini tələb edib. Bəli, məhz tələb edib. Səbəb də gətiriblər ki, bu gün onlar Nikol kiomandasında çalışıb, ona xidmət etməklə, həyatlarını, bir növ, risk altına atmış olublar.

Hə, indi Nikol yazıq neyləsin? Ermənilərin irad tutub deyinmələri ilə deyil axı. Dünya təcrübəsində belədir: ölkənin birinci şəxsi yaxşı qorunmalıdır. İndi yenə də nə olsun ki, bəzi ermənilər durub, ölkənin prokurorluq əməkdaşlarının əksəriyyətinin korrupsiyaya qurşandığını deyirlər. Deməli, bu gün prokurorluq əməkdaşları bu tələbi irəli sürürlərsə, deməli, ehtiyacları var. Ona gorə də, ölkədə polisdi, daha nə bilim Milli Təhlükəsizlik Xidməti əməkdaşlarıdır...bunları narazı salmaq olmaz.

Yeri gəlmişkən yadınızda olar, vaxtilə siz ermənilər pulunun olmaması ilə bağlı Paşinyanın açıq şəkildə təvazökar olduğunu deyirdiniz. İndi də deyirsiniz ki, ölkənin açıq, aşkar soyğunçuluğu 3 il yarımdan çoxdur ki, davam edir. Sonra da bu hakimiyyətin küçədən gələn nümayəndələrinin əksəriyyətinin artıq dollar milyonerinə çevrildiyini deyirsiniz. Belə görünür ki, indi sizin çoxunuz həmin o küçədən gələnlərə qibtə, mən deyərdim lap paxıllıq eləməyə başlamısınız. Əksəriyyətiniz isə, həmən ərəfədə Nikolla yaxınlılq emədiyinizə görə özünü təqsirkar bilir. Gizlətməyin, bu artıq açıq şəkildə sezilməkdədir. Amma mən sizə bir şeyi, Nikolun hələ o vaxt küçələrdə mininq keçirərkən səsləndirdiyi ”Ermənistanda pul həmişə hakimiyyətin bir hissəsi olub” fikrini xatırlatmaq istəyirəm.

...İndi sizin baş nazirinizə irad tutub, onu pul bölgüsündə ”haqsızlıq” etməsinə irad tutmanızla deyil axı...

***Ağasəf Babayev***

***"Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə yalnız informasiya sahəsində ölkəmizin maraqlarının qorunması istiqamətindəki fəaliyyətini göz önündən keçirsək, bütün bunların 44 günlük bir zaman çərçivəsinə sığışdırılması imkansız görünür".***



# “Bunların 44 günlük bir zaman çərçivəsinə sığışdırılması imkansız görünür”

Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Siyasi şərhçi qeyd edib ki, dünyanın 26 aparıcı mediasına (18 TV, 5 agentlik və 3 qəzet) müsahibə, çoxsaylı çıxışlar, bəyanatlar, ən kəskin sualların qarşısında nümayiş etdirilən təmkin və qətiyyət, Ermənistanın, erməni lobbisinin və onlardan öz maraqları üçün istifadə edənlərin uzun illərdən bəri körüklədikləri yalan və böhtanların, daşlaşmış streotiplərin tutarlı faktlarla, dəmir məntiqlə darmadağın edilməsi döyüş meydanındakı Zəfər yürüşünün informasiya məkanında inikası və təntənəsi idi.

Elçin Mirzəbəyli bu barədə fikirlərini belə izah edib: ”2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirilən mətbuat konfransında Prezident İlham Əliyevin 4 saat ərzində 35 media qurumunun 50-dək sualına cavablarını düşünürəm hər kəs yaxşı xatırlayır. Həmin tarixdən 3 ay keçməsinə baxmayaraq, dövlətimizin başçısının nümayiş etdirdiyi yüksək intellekt, geniş dünyagörüşü, obyektiv və əsaslandırılmış baxış bucağı, regiondakı və dünyadakı reallıqların olduğu kimi, həm də cəsarətli bir şəkildə, 4 dildə ifadə olunması bu gün də peşəkar mütəxəssislər, həmçinin dünyanın müxtəlif ölkələrinin nümayəndələri olan sosial şəbəkə istifadəçiləri tərəfindən müzakirə olunmaqdadır.

Prezidentin informasiya strategiyası müharibə dövründə Azərbaycan xalqının, dövlətinin öz torpaqlarını işğaldan azad etməsi, Vətən müharibəsi ilə bağlı həqiqətlər barədə dünya ictimaiyyətini ətraflı məlumatlandırmağa imkan verdiyi kimi, postmünaqişə dövründə də regionun gələcəyi ilə bağlı planlar, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, ermənilərin vandallığı və bunun mənəvi və hüquqi nəticələri haqqında gerçəkliklərin dünyaya dolğun şəkildə çatdırılmasına əlverişli zəmin yaradır”.

***Turqay Musayev***

# Armen Sarkisyanın varlığı və yoxluğu Ermənistana heç nə vermir

***Qarik Keryan: "O, dövlət başçısı funksiyalarının bir hissəsini öz üzərinə götürməyə cəhd edir, lakin baş nazirin dəstəyi olmadan onun xarici səfərlərinin effekti sıfıra bərabər nəticələr verəcək"***



Ermənistanın prezidenti Armen Sarkisyanın son zamanlar xarici səfərlər etməsi və həmin səfərləri çərçivəsində ölkəsi tərəfindən digər ölkələrə əməkdaşlıq təklifləri irəli sürməsi erməni cəmiyyətində və ictimai rəyində birmənalı qarşılanmır. Misal üçün, Armen Sarkisyanın bu yaxınlarda Səudiyyə Ərəbistanına gedərək orada bir sıra rəsmi şəxslərlə görüşlər keçirməsi, habelə Qlazqoda - BMT çərçivəsində iqlim dəyişikliyi (COP26) ilə bağlı keçirilən 26-cı Konfransda ABŞ prezidenti Co Baydenlə və Fransa prezidenti Emmanuel Makronla görüşməsi, əsasən də, Ermənistanın siyasi-ictimai şəxsləri tərəfindən tənqidlərə məruz qalır. Onlar prezidentin siyasi nüfuzunun olmamasını və s. faktları əsas gətirməklə bu görüşlərin heç birinin Ermənistan üçün səmərə vermədiyini deyirlər. Eyni zamanda qeyd olunur ki, əgər Ermənistanın prezidenti hökumətlə sıx əlaqədə olmazsa, hakim gücün dəstəyini görməzsə, onun fəaliyyətinin heç bir əhəmiyyəti yoxdur.





"Prezident Armen Sarkisyanın xarici siyasət arenasındakı fəaliyyəti hakim gücün dəstəyini almalıdır, əks halda bu fəaliyyət sıfır dəyərləndirilməsində olacaq. Armen Sarkisyan dövlət başçısı funksiyalarının bir hissəsini öz üzərinə götürməyə cəhd edir, lakin baş nazirin dəstəyi olmadan onun xarici səfərlərinin effekti sıfıra bərabər nəticələr verəcək". SİA xəbər verir ki, bunu "Sputnik Armeniya"ya İrəvan Dövlət Universitetinin beynəlxalq əlaqələr kafedrasının müdir müavini Qarik Keryan deyib.

**Keryana görə, dəyişikliklər yalnız ambisiyalar üzərində baş verib ki, bu da hakimiyyətin öz gələcəyini təmin etməsi istəyindən irəli gəlir**

Onun sözlərinə görə, Ermənistanın konstitusiyaları həmişə geosiyasi situasiyalara, ölkəyə və xalqa etina olunmadan qəbul edilib və buna görə də hər dəfə onun praktiki bəndlərinin realizəsində problemlər yaranıb: "Ölkədə idarəçilik forması prezidentlikdən yarıprezidentliyə dəyişərkən, sonra isə parlament idarəçiliyinə keçilərkən bir fakta diqqət yetirilməyib ki, ölkə çətin regionda yerləşir. Dövlət idarəçiliyi sistemi isə paralel olaraq çağırışlar çərçivəsində effektliklə realizə olunmalıdır".

Qarik Keryan həmçinin bildirib ki, dəyişikliklər yalnız ambisiyalar üzərində baş verib ki, bu da hakimiyyətin öz gələcəyini təmin etməsi istəyindən irəli gəlir. Onun sözlərinə görə, keçmiş prezident Robert Koçaryan da zamanında prezidentlikdən sonra baş nazir olmaq və hakimiyyətin bu postda saxlamaq məqsədində idi. Serj Sarkisyan da parlament idarəçiliyinə keçməklə bu cür etməyə çalışırdı.

**"Bu adam dövlət idarəçiliyində həm var, həm də yoxdur"**

"Mövcud prezident institutu da konstitusiyaya görə dəqiq funksiyalara və vəzifələrə sahib deyil. Bu adam (Armen Sarkisyan) dövlət idarəçiliyində həm var, həm də yoxdur", Keryan deyib və bildirib ki, hətta aktiv fəaliyyət göstərməsinə rəğmən, Armen Sarkisyan dövlət başçısı funksiyasını üzərinə götürməyə çalışır, amma onda alınmır: "Başqa tərəfdən, o hər hansı layihələr təklif edə bilər, şəxsi əlaqələrinə görə Ermənistanın maraqlarına investisiyalar cəlb edər, lakin onun təşəbbüsləri baş nazirin lazımi dəstəyi olmadan de-fakto uğursuzluğa məhkumdur. Sarkisyanın əlaqələrindən yaranan təsirlər yalnız onun baş nazirlə işbirliyi sayəsində mümkün ola bilər. Əgər prezident bunsuz fəaliyyət göstərirsə, baş nazirin razılığı olmadan hərəkətə keçirsə və aktivliyi hökumət tərəfindən istifadə edilmirsə, dövlət üçün heç bir effekt olmayacaq. Onların arasında belə bir əməkdaşlıq, işbirliyi görməmişəm".

Bu, çox mümkündür ki, Armen Sarkisyana olan işarə idi - sənin burada heç bir hörmətin yoxdur və dediklərinin də əhəmiyyəti sıfırdır...

Onun sözlərinə görə, əvvəllər belə təəssürat yaranırdı ki, baş nazir və prezident eyni siyasi komandanı təqdim etməliydilər, lakin Sarkisyan Paşinyanın gəlişinə qədər seçilmişdi. Hazırda anormal situasiya yaranıb ki, bu situasiyada Sarkisyan idarəçilik sistemində qalmağa cəhd edir.

Sarkisyanın Səudiyyə Ərəbistanına səfəri barədə də danışan Qarik Keryan onun nəticələri barədə də ümidverici nəyinsə olduğunu düşünmür. Belə ki, Səudiyyə Ərəbistanın hər hansı böyük şirkəti Ermənistana investisiya qoya bilər. Lakin bu səfərin nəticələri görünmür.

Yeri gəlmişkən, xatırlada bilərik ki, Armen Sarkisyanın Qlazqodakı konfransda çıxışından əvvəl onun kürsüyə dəvət olunması zamanı yaşanan kazus da belə deməyə əsas verir ki, onun yalnız öz ölkəsində deyil, heç xarici ölkələrin siyasi-ictimai çevrələrində də hörməti yoxdur. Məsələn, o kürsüyə dəvət edilərkən Armen Sarkisyan kimi deyil, Armen Paşinyan kimi çağırılmışdı. Bu isə belə bir böyük tədbirdə heç də buraxılacaq səhv deyil. Bu, çox mümkündür ki, Armen Sarkisyana olan işarə idi: sənin burada heç bir hörmətin yoxdur və dediklərinin də əhəmiyyəti sıfırdır - xüsusilə, Azərbaycana qarşı məlum və sərsəm ittihamlar irəli sürməsi məsələsində...

***Rövşən RƏSULOV***

# ƏDƏBİ YENİLİK: Kənan Hacıdan "Hakimə açılan atəş"

*Yazıçı publisistin yeni romanı işıq üzü görüb*




Tanınmış yazıçı-publisist Kənan Hacının ədəbi yaradıcılığında daha bir yenilik baş verib. SİA xəbər verir ki, onun "Hakimə açılan atəş" adlı romanı işıq üzü görüb. Romanda Birinci Qarabağ müharibəsində Füzuli rayonu ərazisində, Kültəpədə düşmən tankından atılan mərmiyə tuş gələrək şəhid olmuş Zərdab Rayon Məhkəməsinin sədri Məhərrəm Məmmədovun həyat yolundan bəhs olunur.

Əsərdə ədalətli hakim, el-obanın dərd-səriylə, qayğılarıyla yaşayan vətəndaş, mərd və döyüşkən şəxsiyyət obrazı yaradılıb. Səkkiz aya yazılan "Hakimə açılan atəş" romanında Azərbaycanın müstəqillik qazandığı dövrdə baş verən ictimai-siyasi hadisələrə, cərəyan edən olaylarla da geniş yer ayrılıb. Kənan Hacının realist-psixoloji üslubda qələmə aldığı bu romanı ədəbiyyatımızda Qarabağ savaşından bəhs edən ilk əsərlərdəndir ki, sonluğu qələbə ilə bitir.



Qeyd edək ki, yazıçının "Çəhrayı qan" romanında da Qarabağ savaşı fraqment kimi keçir, Aprel döyüşlərindən bəhs edən "İsgəndər şikəstəsi" kinopovesti, "Qarabağ hekayələri" silsiləsindən yazdığı "Estafet", "Ağ-qara fotoşəkil", "Lalə rəngli çobanyastığı", "Qələbəyə aparan yol", "Qalib xalqın yazıçısı" hekayələrində də haqq savaşımızın bədii xronikası öz əksini tapıb.

"Hakimə açılan atəş" romanının isə müstəsnalığı ondadır ki, bu əsərin qəhrəmanı hakimdir. Birinci Qarabağ müharibəsi dövründə Zərdab Rayon Məhkəməsinin sədri vəzifəsində çalışan Məhərrəm Məmmədovun doğulub boya-başa çatdığı Cəbrayıl rayonu erməni hücumlarına məruz qalıb, əhali yurd yerlərindən çıxarılıb. Hakimin ürəyi orda, doğulduğu torpaqda döyünür. Hakim kimi öz vəzifəsini vicdanla yerinə yetirir, sadə insanların himayədarı kimi böyük hörmət və nüfuz qazanır, cəbhədə də onun yolunu gözləyənlər var...

Yazıçı hakimin ömür və döyüş yolunu müdhiş bir şəkildə inandırıcı boyalarla qələmə alıb. "Hakimə açılan atəş" istər ictimai məzmununa, istərsə də dil və üslub xüsusiyyətlərinə görə təqdirəlayiq əsərdir və artıq geniş oxucu kütləsinin rəğbətini qazanıb.

***Rövşən RƏSULOV***

***Rusiya Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Tədqiqatlar Mərkəzinin aparıcı elmi işçisi, "Beynəlxalq Analitika" jurnalının baş redaktoru, tarix elmləri namizədi Sergey Markedonov "Caliber" analitik mərkəzinə müsahibəsində Azərbaycan-Ermənistan münaqişəsi və onun həlli ilə bağlı gedən proseslər haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Sergey Markedonov: "Ermənilər münaqişədən yorulub, yeni müharibə istəmirlər"





**- Bakı İrəvana sülh müqaviləsi bağlamağı təklif edir, lakin Ermənistan tərəfi hələ də konstruktivlik nümayiş etdirməyib. Ona nə uyğun gəlmir və ya ona kim mane olur?**

- Mövcud vəziyyət mükəmməl şəkildə göstərir ki, münaqişə zonasında status-kvonun dəyişməsi avtomatik olaraq onun yekun həlli demək deyil. Elmi və ekspert ədəbiyyatında, jurnalistikada Ermənistanla Azərbaycan arasındakı münaqişə uzun illərdir ki, Dağlıq Qarabağ adlanır. Doğrudan da, əsas qarşıdurma meydanı məhz Dağlıq Qarabağ ərazisi idi. Amma Azərbaycan 26 ildir mövcud olan status-kvonu pozandan sonra başqa problemlər ortaya çıxdı. Və onlar asan görünmür. Məsələn, sərhədin demarkasiyası və delimitasiyası məsələsi. Doğrudan da, SSRİ-nin dağılmasından sonra 30 il ərzində heç kim bununla sistemli şəkildə məşğul olmayıb və Qarabağ münaqişəsi çərçivəsindən kənarda mübahisəli məsələlər mövcuddur. 2020-ci ilin noyabrında Bakı keçmiş DQMV-yə bitişik 7 rayonu, həmçinin Şuşa və kemiş muxtariyyətin bəzi ərazilərini nəzarətə götürüb. Amma tanınmamış "DQR"-in İrəvanla təmasları kəsilmiş formada qalıb. Ermənistan üçün Qarabağın statusu məsələsi mühüm olaraq qalır və bu barədə baş nazir Nikol Paşinyan bu yaxınlarda Moskvaya səfəri zamanı prezident Vladimir Putinlə danışıqlarda danışıb. Burada İlham Əliyevin mövqeyi ilə uyğunsuzluq var.

Nəqliyyat kommunikasiyalarının açılması məsələsi. O, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli birgə bəyanatların mətnlərində əsas yerlərdən birini tutur. Azərbaycan bu prosesi sürətləndirməkdə israrlıdır, lakin Ermənistan rəhbərliyi nəqliyyat kommunikasiyalarının yüksək səviyyədə açılmasının ölkə daxilində etirazlara səbəb ola biləcəyindən ehtiyat edir. Səbəbi belə göstərirlər: güzəştlərin nə vaxt bitəcəyinə əmin deyilik. İstənilən soyadlı siyasətçi bu amilləri nəzərə alacaq. Paşinyan Ermənistanın belə irimiqyaslı güzəştlərə getməyə cəsarət edən ilk lideri oldu. Danışıq masası arxasında onlar haqqında danışmadı, amma qəbul etdi. Və yeni reallığa münasibət birmənalı olmaqdan uzaqdır. Mən heç kəsi heç nəyə çağırmıram, sadəcə, bildirirəm.

**- Rusiyanın 44 günlük müharibəyə müdaxilə etməməsi sizin üçün sürpriz oldu?**

- Bu sualın cavabı bizim müdaxilə dedikdə nəyi nəzərdə tutduğumuzdan asılıdır. Niyə belə güman edilir ki, müdaxilə Cənubi Osetiya, Abxaziya, Krımda, Suriyada gördüyümüz bir şeydir? Müdaxilə təkcə hərbi deyil, həm də diplomatik ola bilər. Moskva isə İkinci Qarabağ müharibəsinin ilk dəqiqələrindən bu istiqamətdə böyük işlər görür. Atəşkəslə bağlı təşəbbüslər irəli sürülüb, Bakı və İrəvanla daimi təmaslar olub, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin hərbi qarşıdurma başlayandan sonra ilk görüşü Moskvada keçirilib. Qeyd edək ki, həm Paris, həm də Vaşinqton diplomatik cəhdlər etsə də, atəşkəsə məhz Moskva nail olub. Qarabağda Rusiya sülhməramlıları yerləşdirilib və bu faktı istər-istəməz ATƏT-in Minsk qrupunun digər həmsədrləri də etiraf ediblər.

Rusiya münaqişəyə hərbi yolla müdaxilə etmək fikrində deyildi. Bu mövqe 2020-ci ilin sentyabrından əvvəl açıq şəkildə ifadə edilmişdi. Və ümumiyyətlə, istər keçmiş Sovet İttifaqı ərazisində, istərsə də onun hüdudlarından kənarda baş verən bütün münaqişələrdə Moskva konkret şəraitdən asılı olaraq fərdi şəkildə hərəkət edir. Həm də Azərbaycan Gürcüstan və Ukraynadan fərqli olaraq NATO-ya can atmır. Burada bir çox faktorlar var. İstəsəniz, bir çox başqalarını da tapa bilərsiniz.

**- Ötən il Cənubi Qafqaz regionunda baş verən müharibədən sonra Rusiya-Azərbaycan-Türkiyə oxunun formalaşdığını deyə bilərikmi?**

- Əlbəttə yox. Mən ən azı dörddə bir əsrdir ki, Qafqaz problemləri ilə məşğulam. Bu müddət ərzində gördüklərim monoqrafiya yazmaq üçün bəs edər. Elmi ədəbiyyatda Rusiya-Türkiyə münasibətləri "rəqabətli əməkdaşlıq", "asimmetrik qarşılıqlı əlaqə", "münaqişəli əməkdaşlıq" adlanır. Moskva və Ankaranın Suriya, Liviya, Krım, Qarabağ məsələlərinə yanaşmaları xeyli fərqlidir. Ankara sırf Bakı üçün oynayır, Moskva isə öz sərhədlərində sülhü təmin edəcək tarazlıq kompromis yanaşması axtarır. Yeri gəlmişkən, Türkiyə ilə Azərbaycan arasında fərqlər var. Ən azından bir məqamı götürün ki, Prezident Ərdoğanın dövründə Türkiyə hazırda Azərbaycanda sarsılmaz olan dünyəvi dövlət dəyərlərindən sürətlə uzaqlaşır. Bakı Şimali Kipr Türk Respublikasının tezliklə tanınmasına o qədər də hazır deyil, Suriyada və ümumilikdə Yaxın Şərqdə vəziyyətin gərginləşməsi ilə bağlı qorxular var.

Bununla belə, mövcud uyğunsuzluqlar qarşılıqlı fəaliyyətə manee deyil. Ümid edirəm ki, siyasətçilərimiz yaranan böhranları səmərəli şəkildə idarə edə, onları aradan qaldıra və hər kəsə uyğun həll yolları tapa biləcəklər.

**- İran xarici işlər nazirinin Moskvada son soyuq qəbulunu necə şərh edə bilərsiniz?**

- Niyə soyuq? İran Xarici İşlər Nazirliyinin indiki rəhbəri Smolenskaya meydanında fəaliyyəti yaxşı məlum olan təcrübəli diplomat olsa da, bu, tanışlıq səfəridir. O, bir nazir kimi İbrahim Rəisinin prezident seçkilərində qalib gəlməsindən sonra işə yeni başlayır. Bu siyasətçi mühafizəkar olması ilə tanınır. Ola bilər ki, o öz ölkəsinin Avrasiyadakı mövqeyini hansısa yolla gücləndirməyə çalışır. Və bu yolda, yəqin ki, tərəfdaşlarla sərt fikir mübadiləsi aparılmadan keçməyəcək. Normal praktikadır. Həmin görüşdə Sergey Lavrov "3+3" formatı haqqında müsbət danışdı. Tehran uzun müddətdir ki, bu formatı təklif edir və Türkiyə prezidenti Ərdoğan da bir neçə dəfə oxşar şəkildə danışıb. Əsas məsələ isə Türkiyə, Rusiya, İran, Gürcüstan, Ermənistan və Azərbaycanın çoxistiqamətli maraqlarının necə birləşdiriləcəyidir.

Buna baxmayaraq, İran və Rusiya nazirlərinin görüşündən az sonra onların gürcü həmkarı David Zalkaliani ölkəsinin "müəyyən formada" regional əməkdaşlıq formatında iştirak etməyə hazır olduğunu bildirib. Əgər belədirsə, deməli, Lavrovla Abdollahiyan arasında Moskva görüşündən artıq müsbət nəticə var.

**- Ermənistanda tez-tez qisas çağırışları eşidilir. Siz buna necə baxırsınız və Rusiya buna icazə verəcəkmi?**

- Belə çağırışlar olur. Belə bir "sosiologiya" var- seçkilərdə olduğu kimi. Ölkədə Nikol Paşinyan və onun "Vətəndaş Sazişi" partiyasının böyük qələbə qazandığı növbədənkənar parlament seçkiləri keçirilib. Birpartiyalı hökumətin qurulmasına imkan verən bir nəticə əldə olunub. Yerli seçkilərdə (ölkənin 2-ci böyük şəhəri Gümrü də daxil olmaqla) hakimiyyətin bir sıra məğlubiyyətləri bu uğuru bir az bulandırdı. Amma burada da başa düşmək lazımdır: hakimiyyətdən narazılıq heç də həmişə İkinci Qarabağ müharibəsinin nəticələrini təkrarlamaq istəyi deyil. İqtisadi vəziyyətdən, sosial problemlərdən, məmurların keyfiyyətsiz işindən narazıdır. Bundan əlavə, Paşinyanı "mövqelərini təslim etdiyinə görə" danlayanlar 2020-ci il noyabrın 10-da imzalanan razılaşmalardan imtina etməyi, onları ləğv etməyi təklif etmirlər.

Rusiyaya gəldikdə isə, təbii ki, o, münaqişənin sülh yolu ilə həllində və kompromis formulunun tapılmasında maraqlıdır. Ona görə də Rusiya liderləri deyirlər ki, status problemlərindən deyil, nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasından başlamaq lazımdır. Sovet dövründə necə idi, mənim yaxşı yadımdadır. Sonra dedilər ki, proletariat ona görə inqilabçıdır ki, "zəncirlərindən başqa itirəcək heç nəyi yoxdur". Moskva istərdi ki, Bakı və İrəvanın itirəcəkləri nə isə olsun, nəinki uzun müddət davam edən münaqişənin "zəncirləri".

**- Siz erməni cəmiyyətinin əhval-ruhiyyəsini yaxşı bilirsiniz, sizcə, Azərbaycanın Qarabağı azad etməsi erməni cəmiyyətinin rahat nəfəs almasına səbəb oldumu?**

- Məlumdur. Ona görə də deyim ki, təbii ki, bu ölkədə Azərbaycanın qələbəsinə azadetmə deyilmir, başqa qiymətlər verilir. Cəmiyyətə gəlincə, yüksək keyfiyyətli sosiologiya ilə qənaətləri dəstəkləmək yaxşı olardı və bu gün bu sahədə aşkar çatışmazlıq var. Əgər 10 noyabr razılaşmasından sonra ölkədə kütləvi etiraz aksiyaları başlayıbsa, bu, "rahat nəfəs almaq" demək deyil. Amma bu da bir həqiqətdir ki, bu etirazlar Paşinyanın getməsinə səbəb olmadı. Bu da ibrətamiz faktdır. Görünən odur ki, Ermənistan münaqişədən yorulub. Onlar yeni müharibə istəmirlər. Amma uzun illərdir ki, hər şey Qarabağı qorumaq ideyası ətrafında qurulub, belə məsələlərə münasibət qısa vaxtda dəyişmir. Eyni zamanda, Ermənistan cəmiyyətinin bütövlükdə yeni müharibə ilə bağlı qərar verməyə hazır olmadığı aydındır.

**- Siz uzun müddətdir -bunu dediyimə görə üzr istəyirəm, - erməni nöqteyi-nəzərinə sadiq qaldınız, amma indi Ermənistanın özü və Rusiya kimi bir çox məsələlərdə fikirlərinizi yenidən nəzərdən keçirəndə, bu anlaşılmazlıq səhifəsini çevirib Bakını ziyarət etmək istəyirsiniz?**

- Jurnalistin vəzifəsinin kəskin suallar vermək olduğunu başa düşsəm də, sizinlə mübahisə edəcəyəm. Bütün həyatım boyu mən yalnız bir nöqteyi-nəzərə əməl etmişəm- ekspertlər tərəfindən təsdiqlənmiş faktlara. Ona görə də mənim mövqeyim ekspertin rəyidir, ermənipərəst və ya azərbaycanpərəst deyil. Postsovet məkanının istənilən "qaynar nöqtələrinə", tanınmamış respublikalara səfər etmək mənim peşəmin bir hissəsidir. Mən münaqişəni öyrənmək istədikdə, bunu kompüterdə qarşısında kresloda oturmaqla deyil, insanların müxtəlif səbəblərdən bir-birinə qarşı çıxdığı yerlərdə olmaqla etməyin daha yaxşı olduğunu düşünürəm.

Son 10-15 il ərzində mənim mətnlərimdən hər hansı birini seçə bilərsiniz və orada bu və ya digər istiqamətdə statusu müəyyən etmək üçün heç bir çağırış və ya açıq-aşkar bəyənmə və bəyənməmələri görməyəcəksiniz. Yeri gəlmişkən, beynəlxalq məsələlər üzrə həmkarlarım kimi Azərbaycan jurnalistləri də mənimlə müntəzəm əlaqə saxlayırlar. Ona görə də, 2020-ci ilin şəxsən mənim üçün nəyisə dəyişdiyini düşünmürəm. 2020-ci ilin sentyabr-noyabr aylarında yazdıqlarıma- İkinci Qarabağ Müharibəsinin nəticələri ilə bağlı məruzələrimə və məqalələrimə baxın. Ona görə də mən Bakıya müsbət səfər edəcəm, bir daha deyirəm, insanların əhval-ruhiyyəsini başa düşməyin ən yaxşı yolu onlarla şəxsən ünsiyyət qurmaqdır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
6 noyabr
2021-ci il

# Baş ağrısı ilə yüksək təzyiqin əlaqəsi varmı?

*Adətən baş ağrısı xüsusilə yaşlı insanlarda ilk növbədə yüksək təzyiqlə əlaqələndirilir. Bu səbəbdən baş ağrısı zamanı biz ilk növbədə təzyiqimizi ölçürük.*



Rusiyanın ”Jit zdorovo!” (”Jitğ zdorovo!”) adlı populyar sağlamlıq verilişinin həkimləri bu mövzuya xüsusi buraxılış həsr ediblər. Mütəxəssislər qeyd ediblər ki, baş ağrısı ümumiyyətlə təzyiqlə bağlı deyil.

Təzyiqin qalxması baş ağrısına səbəb olmur. Hətta əksinə təzyiq baş ağrısına cavab olaraq qalxa bilər. Rusiya KİV-ləri xəbər verir ki, baş ağrısı yüksək təzyiqin simpomu sayılmır. Yüksək təzyiqi məhz bu səbəbdən ”səssiz qatil” adlandırılır ki, o əksər hallarda özünü heç bir simptomla büruzə vermir.

Hipertoniya illər ərzində simptomsuz inkişaf edə bilər və onun ilk ”simptomu” hətta infarkt və ya insult ola bilər. Bu səbəbdən həkimlər profilaktik olaraq təzyiqi vaxtaşırı ölçməyi tövsiyə edirlər. Bu yüksək təzyiqi vaxtında aşkar etməyə yardım edəcək. Nəzərinizə çatdıraq ki, normal təzyiq 140/90 mm c.st qədər sayılır.

# Quru meyvələr say ilə, çərəzlər qramla yeyilməlidir

***Qoz, şabalıd, fındıq, fısdıq süfrələrimizin əvəzolunmaz neməti sayılsa da, qədərindən çox istifadə olunanda orqanizmə təsirsiz ötüşmür və artıq çəki problemi yaradır. Həmin hallarla üzləşməmək üçün bir sıra qaydaları gözləmək lazımdır.***

AZƏRTAC xəbər verir ki, həkim-diyetoloq Səfa Yadigarova çərəzlərlə qidalanma qaydası barədə deyib: ”Çərəzlərin qədərindən artıq qəbul edilməsi artıq kilolara səbəb olmaqla yanaşı, allergik proseslər - üzdə səpgi, qaşınma və bağırsaq problemləri yarana bilər. Çərəzlər faydalı qidadır, lakin onun hansı miqdarda qəbul etməyi bilmək lazımdır. Gün ərzində 6 ədəd qoz ləpəsi, 15-20 ədəd badam, 5-6 ədəd yapon qozu, 15 qram balqabaq toxumu, 40 qram püstə istifadə etmək olar”.

Çərəzlərə quru meyvələr də daxildir. Mütəxəssislərin dediyinə görə, bəzi quru meyvələr, xüsusilə də xurma qanda şəkərin miqdarını artıra bilər. Bundan başqa çərəzlərin kalorisi də çox yüksəkdir. Ona görə də onların normadan artıq qəbulu çəki artımına səbəb olur.

”Elə quru meyvələrdən istifadə olunmalıdır ki, onların hazırlanmasında şəkərdən istifadə olunmasın. Quru meyvələr say ilə, çərəzlər isə qramla - gün ərzində təxminən 30-40 qram yeyilə bilər. Məsələn, gündə 2 xurma qurusu, 3 qaysıdan artıq gavalı arıqlama mərhələsində çox faydalıdır. Qəbizliyə meyilli olanlar və bağırsaq problemi ilə üzləşənlər onu isladılmış formada istifadə edə bilərlər”, - deyə həkim-diyetoloq bildirib.

Sümükləri möhkəmlədən, yaddaşı gücləndirən, ürək-damar xəstəliklərinə müsbət təsir göstərən və xərçəng riskini azaldan çərəzlər çiy halda qəbul edilməlidir, çünki qovrulan çərəzin qida tərkibi dəyişikliyə məruz qalır, içərisində olan yağ trans yağa çevrilir. Onları qovuran zaman dadlandırmaq üçün duzdan da istifadə etmək məsləhət görülmür, çünki qədərindən artıq duz da orqanizm üçün çox zərərlidir.



# Azərbaycan futbolunda yeni tarix: “Qarabağ” pley-offda!




***Futbol üzrə UEFA Konfrans Liqasının qrup mərhələsində 4-cü turun oyunları keçirilib. Belə ki, turnirdəki təmsilçimiz "Qarabağ" da növbəti oyununa çıxıb. Qurban Qurbanovun komandası Qazaxıstanda "Kayrat"ın qonağı olub.***

Bakıda keçirilən görüşdə əzmkar qələbə (2:1) qazanan Ağdam təmsilçisi səfərdə də 2:1 hesabı ilə qalib gəlib və 10 xalla qrup lideri olub. ”Qarabağ” bu qələbə sayəsində pley-offa çıxmasını təmin edib. Buna qrupun bu gün keçirilən digər matçında ”Bazel”in səfərdə ”Omoniya” ilə heç-heçə etməsi də səbəb olub. Beləliklə,”Qarabağ” Azərbaycan futbolu tarixində daha bir ilkə imza ataraq avrokuboklarda qrupdan çıxan ilk klubumuz oldu.

Qeyd edək ki, qrup mərhələsinin başa çatmasına iki tur qalıb. ”Qarabağ” qrupdan lider kimi çıxsa, birbaşa Konfrans Liqasının 1/8 finalına yüksələcək. Qrupda 2-ci yeri tutan komanda isə Avropa Liqasında ən yaxşı qrup 3-cüsü olan 8 komandadan biri ilə pley-off oyununa çıxacaq.

# Nyu-Yorkda peyvəndlənən uşaqlara 100 dollar verilir...

Koronavirus əleyhinə peyvənd olunan 5-11 yaş arası uşaqların 100 dollar almaq hüququ var. SİA xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə Nyu-York şəhərinin meri Bill de Blazio özünün ”Twitter” səhifəsində yazıb. ”Şəhərin vaksinasiya mərkəzində koronavirusa qarşı peyvənd olunan 5-11 yaş arası uşaqlar 100 dolları məbləğində mükafat almaq hüququna malikdir”, - deyə Bill de Blazio bildirib.

Bir müddət öncə tibbi tənzimləyicilər FDA və CDC 5-11 yaşlı uşaqları vaksinasiyadan keçirmək üçün ”Pfizer” peyvəndinin istifadəsinə icazə verib. Uşaqlar arasında ağırlaşmalar və ölüm hallarına nadir hallarda rast gəlinsə də, COVID-19 infeksiyasına yoluxmaların təxminən dörddə birini azyaşlılar təşkil edir. Hazırda Nyu-York əhalisinin 67,4 faizi koronavirus əleyhinə tam olaraq, 6,4 faizi qismən peyvənd edilib, 26,3 faizi isə vaksinasiyadan keçməyib.



## Elan

**Neftçala rayon E.Həbibov adına tam orta məktəb tərəfindən Əliyev Məmməd Əli oğlunun adına verilmiş təhsili bitirmə haqqında şəhadətnamə - attestat itdiyi üçün etibarsız sayılır.**

# Deputat Nəsrinin serialını şikayət etdi



***Uzun müddətdir maraqla gözlənilən və noyabrın 1-dən ekrana gələn "Üç kuruş" serialı sosial şəbəkələrdə müzakirə doğurub.***

Qaraçıların həyatından bəhs edən ekran işinə hətta siyasətçilər də reaksiya verib.

Milli.Az Olay-a istinadən xəbər verir ki, Cümhuriyyət Xalq Partiyasının (CHP) İzmir üzrə millət vəkili Özcan Purçu serialı ”RTÜK”ə şikayət edib. O, buna səbəb kimi qaraçılara qarşı ayrıseçkilik edildiyini göstərib.

Qeyd edək ki, sözügedən serialda azərbaycanlı aktrisa Nəsrin Cavadzadə də rol alır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**”ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**